RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 128 (8721) ÇƏRŞƏNBƏ AXŞAMI, 22 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Şuşa Bəyannaməsi - sülh bəyannaməsi

Biz həmişə Tanrıya üz tutanda gözlərimizi göyə zilləyirik.

Əslində, hamımız Allahın səmanın sonsuzluğunda qərar tutduğunu qəbul etmişik.

**Odur ki, yüksəkliyə qalxanda Allaha yaxınlaşdığımızı zənn edirik.**

**Şuşa Azərbaycanın ən hündür nöqtələrindən birində yerləşdiyindən Allaha yaxın şəhər sayılır.**

**Belə şəhərlərdə, adətən, xoş istək və arzular səsləndirilir, onların daha tez reallaşacağına inam olur.**

*Azərbaycan xalqını böhrandan, dövlətini və dövlətçiliyini itirmək təhlükəsindən xilas edən Milli Qurtuluş Günündə Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və birliyinin yeni təsdiqi sayılan Şuşa Bəyannaməsinin məhz burada imzalanmasının ikiqat rəmzi mənası var.*

Bu, Uca Tanrının da yaxından xeyir-dua verdiyi birlikdir, sazişdir!

Bu birlik Qarabağın daha etibarlı müdafiəsini təmin edəcəkdir!

Üstəlik, bu birlik Şuşa da daxil bütün Qarabağın sürətlə yenidən tikilib qurulmaqla cənnətə çevrilməsinə öz töhfəsini verəcəkdir!

**Bu birlik həm də dosta sevinc, fərəh gətirir, düşmənə gözdağına çevrilir!**

❖ ❖ ❖

I Qarabağ müharibəsində ona görə məğlub olduq ki:

- Xalq həqiqi rəhbərindən - Ulu Öndər Heydər Əliyevdən uzaq düşmüşdü;
- Dövlətə maymaqlar, qorxaqlar, səriştəsizlər, şəxsi maraqlarını milli mənafedən üstün tutanlar başçılıq edirdilər;
- Düzgün daxili və xarici siyasət formalaşdırılmamışdı;
- Vaxtında ordu qurulmadı və silahlandırılmadı;
- Torpaqların etibarlı müdafiəsi təşkil olunmadı;
- Ölkədə sabitliyin pozulması, özbaşınalığın və qanunsuzluğun baş alıb getməsi vətəndaş müharibəsinə, ən nəhayət, torpaqların itirilməsinə səbəb oldu!
- Məğlubiyyətin bir səbəbi də Ermənistanın bir neçə mənbədən silahlandırıldığı, maliyyələşdirildiyi və digər formalarda yardım göstərildiyi halda Azərbaycanın tək və köməksiz qalması idi.

*Hətta qardaş Türkiyə də bizə həmin vaxt yardım göstərə bilmədi.*

❖ ❖ ❖

Münaqişənin ilkin mərhələsində Azərbaycan problemin sülh yolu ilə, danışıqlar vasitəsilə həllinin tərəfdarı olduğunu açıq şəkildə ortaya qoydu.

Ermənistan tərəfi isə bunu güzəşt və qorxaqlıq əlaməti kimi qiymətləndirərək daha da azğınlaşdı.

**Bəli, ötən əsrin 90-cı illərində meydanda zəif Azərbaycan və arxalı Ermənistan var idi!**

Ermənistan həmişəki kimi, həm də xain xislətinə sadiq olaraq bu məqamdan bəhrələndi, Dağlıq Qarabağı və ətrafdakı yeddi rayonu işğal etdi.

Azərbaycan yenə də məsələnin çözülməsinin sülh danışıqları yolu ilə, eyni zamanda ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu söylədi.

*Ardı 3-cü səh.*

◆ **Qarabağ söhbətləri**

## İlham Əliyevin yaradacağı Ağdam daha möhtəşəm, daha qüdrətli olacaq

...O gün mavi ənginliklərdəki ağ buludlar birdənbirə qara paltar geyindi. Səmadan quşlar da yox oldu, həyat əlaməti olan nə vardısa, dayandı. O gün düşmən Çörək muzeyini də yandırdı. Bərəkət rəmzi məscidin minbərindən qalxan ilahi naləyə qoşulub göylərə doğru yol aldı...O yol 28 il çəkdi...



"Qarabağ söhbətləri"nin budəfəki qonağı Prezident İlham Əliyevin Ağdamda şəhərin təməl daşının qoyulması mərasimində iştirak edən Hafiz Əliyevdir. Ağdam Çörək Muzeyinin keçmiş direktoru ilə ağdamlı günlərindən, çörək muzeyindəki fəaliyyətindən danaşacayıq.

Hafiz Əliyev 1963-cü ildə Ağdamda dünyaya gəlib. 1 nömrəli orta məktəbdə təhsil alıb. Bakıda ovaxtkı Lenin adına APİ-nin (Pedaqoji Universitetin) Tarix fakültəsini bitirib. 1984-cü ildə təyinatla Ağdamın Xındırıstan kənd orta məktəbində müəllim işləməyə başlayıb.

1986-cı ildə Ağdam Çörək Muzeyində elmi işçi kimi işə qəbul edilib. Bir il sonra, 1987-ci ildə həmin muzeyin direktoru təyin olunub. 1992-ci ilin avqustuna qədər...

Hazırda 18 ildir Asəf Zeynallı adına Musiqi Kollecində direktor müavinidir.

*Ardı 6-cı səh.*

## Qars müqaviləsindən Şuşa Bəyannaməsinədək...

### Qarabağ Zəfəri Azərbaycan-Türkiyə müttəfiqliyinin təntənəsi oldu

Şuşa son 8 ayda hərbi, siyasi və mədəni aləmdə 3-cü möhtəşəm tarixini, böyük qələbəsini yaşayır.

30 ilə yaxın erməni işğalçılarının tapdağı altında əzilən Şuşa ötən il noyabrın 8-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və Milli Ordumuzun rəşadəti ilə böyük zəfərə, şanlı qələbəyə yetişdi. Dövlət başçısının sərəncamı ilə ölkənin mədəniyyət paytaxtı elan edilən qədim Şuşa "Xarıbülbül" musiqi festivalına layiqli evsahibliyi etməklə növbəti tarixə imza atdı.

İyunun 15-də isə Şuşa Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalandığı tarixi məkana çevrildi. Artıq bu dəfə dünyaya ötürülən əzmli və qətiyyətli mesajlar regionun iki nüfuzlu lideri - Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dilindən çatdırıldı. Bu qətiyyətli mesajlar Paşinyanın cəmi iki il əvvəl əzəli torpağımız Şuşada ikrahedici rəqsi ilə hər kəsə nümayiş etdirmək istədiyi xəstə təfəkkürlü mesajlarının cılızlığını bir daha ortaya qoydu.

*Ardı 4-cü səh.*

## Pakistan və Azərbaycan iki qardaş ölkə olaraq əlaqələrini gücləndirir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacvanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, ordu generalı Qamar Caved Bacvanı salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sizi görməyə çox şadam. Xoş gəlmisiniz. Ümidvaram ki, ölkəmizə səfəriniz çox səmərəli olacaq və bu, bizim sıx tərəfdaşlıq münasibətlərimizi daha da gücləndirəcək. Biz çox şadıq ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir. Pakistan və Azərbaycan iki qardaş ölkə olaraq ikitərəfli əlaqələrini gücləndirir. Biz xüsusilə İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycana göstərdiyi çox fəal dəstək mövqeyinə görə minnətdarıq. Müharibənin ilk günlərindən ölkənizin ali rəhbərliyi - Prezident və Baş nazir ərazi bütövlüyümüzün bərpasında Azərbaycana tam dəstəklərini ifadə etdilər. Bu, bizim əməkdaşlığımızın çox mühüm elementi və qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir. Pakistanın digər yüksəkrütbəli rəsmiləri, parlament üzvləri və ictimai xadimlər Ermənistan ordusunun tam məğlubiyyəti və Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük müharibə ərzində bizi dəstəklədilər.

*Ardı 2-ci səh.*

## Azərbaycan və Qazaxıstan prezidentləri arasında daimi təmaslar əməkdaşlığın inkişafı üçün yaxşı əsas yaradır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdi Qazaxıstan dövlətinin başçısı Kasım-Jomart Tokayev və Qazaxıstanın birinci Prezidenti - Elbası Nursultan Nazarbayevin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Qazaxıstan dövlətinin başçısının və Qazaxıstanın birinci Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kasım-Jomart Tokayevə və Nursultan Nazarbayevə çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin əsasının Ulu Öndər Heydər Əliyev və Qazaxıstanın birinci Prezidenti - Elbası Nursultan Nazarbayev tərəfindən qoyulduğu qeyd olunaraq, hazırda bu siyasətin Azərbaycanın və Qazaxıstanın dövlət başçıları tərəfindən uğurla davam etdirildiyi bildirildi, prezidentlər arasında daimi təmasların əməkdaşlığımızın inkişafı üçün yaxşı əsas yaratdığı vurğulandı.

Söhbət zamanı iqtisadi əlaqələrə toxunularaq, investisiya layihələrinin və nəqliyyat dəhlizlərinin inkişafının önəmi qeyd olundu. Qarşıdakı illərdə yükdaşımanın həcminin artırılmasının və tariflərin unifikasiyası üçün daha əlverişli şəraitin yaradılmasının vacibliyi bildirildi.

Eyni zamanda ticarət dövriyyəsinin artırılmasının da gündəlikdə duran mühüm məsələlərdən biri olduğu qeyd edildi və pandemiya bitdikdən sonra ticarət dövriyyəsinin bərpa olunacağına və artırılacağına ümidvarlıq ifadə olundu. Bu baxımdan ticari-iqtisadi əməkdaşlığın şaxələndirilməsinin və qarşılıqlı ixracın genişləndirilməsinin vacibliyi vurğulandı.

Görüşdə ölkələrimiz arasında beynəlxalq əməkdaşlıq sahəsində də sıx əlaqələrin mövcud olduğu məmnunluqla qeyd edildi.

Muxtar Tleuberdi Azərbaycanın ərazi bütövlüyünün bərpası, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin həyata keçirilməsi və Qələbə münasibətilə Azərbaycan Respublikasının Prezidentini və Azərbaycan xalqını səmimiyyətlə təbrik etdi. O, bu Qələbənin regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət etdiyini bildirdi.

## 80 illik ibrət dərsi

22 iyun 1941-ci il...

Bizi bu tarixdən düz 80 il ayırır. Əgər 80 il əvvəl baş verənlər olmasaydı, bəlkə də, 22 iyun təqvimdə adi günlərdən biri kimi ötüb keçəcəkdi. Amma tarix şərt və gümanlarla danışmağı sevmir.

80 il əvvəlin məhz bu günündən etibarən həyatımızda ağır bir sınaq başladı. Milyonlarla insan həyatını itirdi. Bəşəriyyət görünməmiş vəhşiliklərlə üzləşdi. Dünya inkişaf axarından neçə onilliklər geri düşdü. Ömrün ən gözəl vədələrində müharibəyə yollanan insanların qısa müddətdən sonra qara kağızları gəldi. Döyüşlərdə itkin düşmüş yüz minlərin taleyindən indiyə qədər bir xəbər yoxdur. Cəbhədə itkin düşmüş nakam övladının yolunu ömrünün sonuna qədər gözləyən yaşlıların ümid və intizar dolu baxışlarını heç birimiz unutmamışıq.

*Ardı 9-cu səh.*

## Ermənistan faşizmə və "müharibə partiyası"na "yox" dedi

### Erməni xalqı iki şər qüvvə arasından nisbətən zərərsizini seçdi

Ermənistanda növbədənkənar parlament seçkiləri başa çatdı. 21 partiya və 4 blokun iştirak etdiyi seçki prosesi bir sıra kobud qanun pozuntuları, hətta silahlı insidentlə müşayiət olundu. Bəzi dairələr bunu ölkə tarixinin ən rüsvayçı seçkiləri adlandırdılar.



Ermənistan MSK-nın yaydığı məlumata əsasən, N.Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" partiyası 53,92 faiz səs qazanmaqla qalib gəlib. Ancaq növbədənkənar seçki nəticəsində parlamentdə "Ermənistan" bloku da təmsil olunacaq.

*Ardı 9-cu səh.*

# Pakistan və Azərbaycan iki qardaş ölkə olaraq əlaqələrini gücləndirir

*Əvvəli 1-ci səh.*

Dağlıq Qarabağ münaqişəsi Azərbaycan tərəfindən güc və siyasi yolla həll olundu.

Mən həmçinin qeyd etmək istərdim ki, Pakistan bizim torpaqlarımızın işğalı səbəbindən Ermənistanı tanımayan və Ermənistanla diplomatik əlaqələr qurmayan az sayda ölkələrdən biridir. Bu, ölkələrimiz arasında qardaşlıq əlaqələrimizin daha bir nümayişidir. Azərbaycan xalqı bunu bilir. Biz hər zaman Azərbaycanı kimin dəstəklədiyi və müharibə zamanı bizi kimin dəstəklədiyi barədə mesaj veririk. Ona görə də bütün şəhər və ölkəboyu Pakistan bayraqlarının olması təəccüblü deyil, bunun nəticəsində ölkələrimiz və xalqlarımız arasındakı qardaşlıq güclənəcək. Bildiyiniz kimi, Azərbaycan Kəşmir məsələsində hər zaman Pakistanı dəstəkləyir. Bizim açıq mövqeyimiz dəfələrlə nümayiş etdirilib. Bu mövqe ədalət, beynəlxalq hüquq və qardaşlıq əlaqələrimizə əsaslanır. Biz bütün məsələlərdə qardaşlarımızı dəstəkləməliyik.

Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq hüquq və ədaləti fəal şəkildə müdafiə edir. Mən Bakıda keçirilən sammitdə şəxsən iştirak etdiyinə və Qoşulmama Hərəkatı çərçivəsində bizim təşəbbüsləri dəstəklədiyinə görə Pakistanın Prezidentinə çox minnətdaram. Əməkdaşlığımız uğurla inkişaf edir. Biz müdafiə və müdafiə sənayesi sahələrində çox yüksəksəviyyəli tərəfdaşlıq nümayiş etdiririk. Sizin bizim ölkəmizə səfəriniz bunun daha bir göstəricisidir. Biz Pakistanın müdafiə sənayesi məhsullarına çıxışımız olduğuna görə məmnunuq. Bildiyiniz kimi, biz bu məhsulları alırıq, bu da bizim hərbi potensialımızı gücləndirir. Düşünürəm ki, qarşıdakı illərdə biz hərbi əməkdaşlığımızı genişləndirməli və tərəfdaşlığımızı gücləndirmək üçün birgə hərbi təlim və başqa təşəbbüslər planlaşdırmalıyıq. Əminəm ki, bu və bir çox başqa məsələlər həmkarlarınızla müzakirə mövzuları kimi sizin gündəliyinizdə olacaq. Sizə yaxşı vaxt keçirməyi arzulayıram. Bir daha xoş gəlmisiniz.

* * *

Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacva Pakistanın Baş naziri İmran Xanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Pakistanın Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İmran Xana çatdırmağı xahiş etdi.

* * *

Ordu generalı **Qamar Caved BACVA** dedi.

- Cənab Prezident. İlk növbədə, Sizinlə görüşmək mənim üçün böyük şərəfdir. Birincisi, Ermənistanı məğlub edərək və ərazilərinizi geri qaytararaq qazandığınız tarixi Qələbə münasibətilə səmimi-qəlbdən təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Düşünürəm ki, bu, hər bir müsəlman, hər bir pakistanlı üçün möhtəşəm hadisədir. Ölkənizə qarşı qərəzliliyə baxmayaraq, Siz ərazi bütövlüyünüzü bərpa etdiniz. Sizi səmimi-qəlbdən təbrik edirəm. İkincisi, mən qeyd etmək istərdim ki, 1993-cü ildə dostlarımdan biri Azərbaycana gəlmişdi və o zaman çox məyus olmuşdu. O, ötən il buraya səfər etdi və heyran oldu, dedi ki, görkəmli şəxsiyyət olan atanızın və Sizin rəhbərliyinizlə Azərbaycan son 30 ildə inkişaf edib. O, qeyd etdi ki, bunu yüksək qiymətləndirir.

Zati-aliləri, Azərbaycan ilə bizim ortaq tərəfdaşlarımızdan biri də Türkiyədir. Sizin "bir millət, iki dövlət" dediyiniz kimi, Türkiyə bizim də qəlbimizə çox yaxındır. Dünyada ən yaxın əlaqələrimiz Türkiyə ilədir. Hər üç ölkə arasında sıx əlaqələrin olması əməkdaşlığımız üçün hədsiz imkanlar açır. Bizim Azərbaycanda nəzərdən keçirəcəyimiz bir çox imkanlar var, iş adamlarımız buraya səfər edə bilərlər.

* * *

Görüşdə nəqliyyat, logistika, energetika, ticarət dövriyyəsi sahələrində əməkdaşlıq məsələləri də müzakirə olundu.

# Baş nazir Əli Əsədov Qazaxıstanın Baş nazirinin müavini ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 21-də Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdi ilə görüşüb. Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Qazaxıstan əlaqələrinin uğurla inkişaf etdiyi məmnunluqla qeyd edilib, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

# Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub

İyunun 21-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacvanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək üzərinə əklil və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovulun önündən keçdikdən sonra hər iki ölkənin dövlət himnləri səsləndirilib. Protokola uyğun olaraq ordu generalı Qamar Caved Bacva "Şərəf kitabı"nı imzalayıb.

Görüşdə xalqlarımız arasında dostluq və qarşılıqlı etimadın, eləcə də Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, ölkələrimiz arasında beynəlxalq hərbi əməkdaşlığın əsas istiqamətləri nəzərdən keçirilib.





Müdafiə naziri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə Vətən müharibəsi Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatıb və torpaqlarımız işğaldan azad edilib. Nazir Azərbaycan Ordusu tərəfindən keçirilmiş uğurlu hərbi əməliyyatlar və Ordumuzun bu müharibədə qazandığı döyüş təcrübəsi haqqında qonağa ətraflı məlumat verib.

Azərbaycan-Pakistan hərbi əməkdaşlığının inkişafından məmnunluğunu ifadə edən general-polkovnik Z.Həsənov Azərbaycanın ədalətli mövqeyini bütün səviyyələrdə, o cümlədən beynəlxalq təşkilatlarda dəstəklədiyinə, həmçinin ölkəmizə göstərilən humanitar yardıma və mənəvi dəstəyə görə Pakistan rəhbərliyinə və xalqına minnətdarlığını ifadə edib.

Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən general-polkovnik Z.Həsənov bu cür görüşlərin qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından vacibliyini xüsusi vurğulayıb.

Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı Vətən müharibəsində qazanılan qələbə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Xalqlarımız arasında tarixən dostluq əlaqələrinin olduğunu qeyd edən ordu generalı Qamar Caved Bacva bu münasibətlərin digər sahələrdə olduğu kimi, ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın da inkişafına böyük töhfə verdiyini bildirib.

Səmimi görüşə görə minnətdarlığını ifadə edən ordu generalı Qamar Caved Bacva azad edilmiş ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsi prosesində pakistanlı mütəxəssislərin də iştirak etməyə hazır olduğunu bir daha diqqətə çatdırıb. General həmçinin iki ölkənin hərbi sahədə əməkdaşlığının keyfiyyətcə yeni müstəviyə çıxarılması üçün kifayət qədər geniş potensialın olduğunu bildirib.

Hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsi zamanı dağ təlimi mərkəzlərinin birgə istifadəsi və dağ-təlim heyətinin hazırlanması, həmçinin birgə təlimlərin keçirilməsi barədə razılıq əldə olunub.

Sonda tərəflər hərbi əlaqələrin hər iki ölkənin maraqlarına cavab verdiyini əsas gətirərək bu sahədə səylərin daha da artırılmasının zəruriliyini qeyd edib, hərbi qulluqçuların təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərinin təşkili və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan ilə Qazaxıstan arasında münasibətlər möhkəm təməllər üzərində qurulub"

"Azərbaycan və qazax xalqları eyni kökə, mədəniyyətə, dilə, dinə, qədim tarixi münasibətlərə və ənənələrə malikdirlər. Azərbaycan ilə Qazaxıstan arasında dinamik inkişaf edən münasibətlər möhkəm təməllər üzərində qurulub. İnanırıq ki, Qazaxıstan Baş nazirinin müavininin səfəri ölkələrimiz arasında əməkdaşlığa mühüm töhfə verəcək".

AZƏRTAC xəbər verir ki, bu fikirləri xarici işlər naziri Ceyhun Bayramov mətbuat konfransında söyləyib.

Görüş zamanı ölkələrimiz arasında ticari-iqtisadi münasibətlərin də müzakirə olunduğunu bildirən nazir deyib ki, məqsəd pandemiyadan əvvəl mövcud olan vəziyyəti bərpa etməkdir.

"Görüşdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri ilə bağlı fikir mübadiləsi aparıldı. Hökumətlərarası komissiyanın növbəti iclası keçiriləcək. Eyni zamanda ölkələrimizin iştirakı ilə mühüm layihələrdə iştirak məsələləri müzakirə olundu. İki ölkə arasında münasibətlərdə Xəzər mövzusu gündəliyin vacib elementidir", - deyən Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycan və Qazaxıstan BMT, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və digər beynəlxalq platformalarda əlaqələrini inkişaf etdirir. Qazaxıstanın iqtisadi fəallığını dəstəkləyən ölkələrdən biri də Azərbaycandır.

Postmüharibə dövründə bölgədə yeni reallıqların yarandığını bildirən C.Bayramov vurğulayıb ki, hazırda mina təhlükəsi Azərbaycan üçün narahatedici məsələlərdən biridir. Ermənistan tərəfindən mina xəritələrinin verilməsi ilə bağlı qeyri-konstruktiv mövqe nümayiş etdirilir. Bu isə işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinə maneə yaradır.

Yeni kommunikasiya xətlərinin açılması ilə bağlı ləngimənin olduğunu deyən nazir qeyd edib ki, Ermənistanda yaşanan siyasi böhran buna mənfi təsir göstərir. Ümid edirik ki, növbədənkənar seçkilərdən sonra seçilmiş yeni rəhbərlik ədalətli və düzgün mövqe nümayiş etdirəcək. Azərbaycanın bu məsələdə mövqeyi dəyişməz olaraq qalır. Azərbaycan beynəlxalq hüquq çərçivəsində digər ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşır.

# *Muxtar TLEUBERDİ:* "Qazaxıstan Azərbaycanla əməkdaşlığa böyük önəm verir"

"Qazaxıstan Azərbaycanla əməkdaşlığa böyük önəm verir. Ölkələrimiz din, dil, adət-ənənələrə və tarixi köklərinə görə bir-birinə çox yaxındırlar. Qazaxıstan dövləti Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığı yüksək qiymətləndirir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdi iyunun 21-də azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşdən sonra keçirilən mətbuat konfransında ifadə edib.

Azərbaycanın 44 günlük Vətən müharibəsində Zəfər qazanmasından ölkəsinin məmnunluğunu bildirən Muxtar Tleuberdi qeyd edib ki, üçtərəfli Bəyanat regionda sabitliyin təmin olunmasında mühüm rol oynayır. Zəngəzur dəhlizinin əhəmiyyətindən danışan nazir bildirib ki, bu dəhlizin açılması ölkələrimiz arasında yeni imkanlar yaradacaq.

"Azərbaycan geosiyasi reallıq yaradıb. Ölkəniz demokratik və modern inkişaf yolu ilə inkişaf edir. Azərbaycan Qazaxıstanın Cənubi Qafqazda əsas tərəfdaşlarından biridir. İqtisadi diplomatiyanı inkişaf etdirməyə hazırıq. Vaksin pasportlarının tanınması, birbaşa aviareyslərin açılması müzakirə mövzusudur. Eyni zamanda mədəniyyət, elm, turizm və digər sahələrdə layihələrimizi davam etdirəcəyik. Ölkələrimiz arasında faydalı əməkdaşlıq sistemi qurulub və biz bu əməkdaşlığı daha yüksək səviyyədə inkişaf etdirəcəyik", - deyə nazir vurğulayıb.

# Azərbaycan-Misir əlaqələrini genişləndirmək üçün böyük potensial var

İyunun 21-də Milli Məclisin Azərbaycan-Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ceyhun Məmmədov Misir Ərəb Respublikasının Azərbaycandakı səfiri Adel İbrahim Ahmed İbrahim ilə görüşüb.

Qonağı salamlayan deputat Milli Məclis rəhbərliyinin parlamentlərarası əməkdaşlığa və parlamentin beynəlxalq fəaliyyətinə böyük diqqət yetirdiyini bildirib.

Milli Məclisin Misirlə parlamentlərarası əlaqələr üzrə işçi qrupu barədə məlumat verən Ceyhun Məmmədov Misir parlamentində də müvafiq qrupun yaradılmasının əhəmiyyətini qeyd edib.

Azərbaycanı və Misiri birləşdirən ortaq dəyərlərdən danışan deputat iki ölkə arasında əlaqələri genişləndirmək üçün böyük potensialın olduğunu deyib, əməkdaşlığın intensivləşdirilməsinin vacibliyindən danışıb.

Ceyhun Məmmədov səfirin Azərbaycanda diplomatik fəaliyyəti müddətində ölkələrimiz arasında dost münasibətlərin inkişafına çalışmasını yüksək dəyərləndirib, bu istiqamətdə gələcəkdə də onun öz səylərini əsirgəməyəcəyinə əminliyini bildirib.

Öz növbəsində, Misirin Azərbaycandakı səfiri Adel İbrahim Ahmed İbrahim ölkəmizdə fəaliyyət göstərməsindən məmnunluğunu ifadə edib. Misir xalqının Azərbaycana və onun xalqına səmimi hisslər bəslədiyini vurğulayıb. İki ölkə arasında mövcud olan parlamentlərarası əlaqələrdən söz açan diplomat bu əlaqələrin gələcək inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini deyib.

Görüş zamanı tərəflər Azərbaycan və Misir arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri barədə də fikir mübadiləsi aparıblar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanlı deputat AŞ PA üzvlərini mina xəritələrini vermək üçün Ermənistana təzyiq göstərməyə çağırıb

"Qarabağ 30 il ərzində inkişafdan məhrum olub, bu bölgədə heç bir tərəqqi müşahidə edilməyib. Ermənistan üç min mədəniyyət və dini irs abidəsi daxil olmaqla, hər şeyi məhv edib, daş üstündə daş qalmayıb. Azad olunmuş ərazilərə səfər edən bütün xarici qonaqlar görünməmiş barbarlığın şahidi olub və bundan dəhşətə gəliblər. Qarabağdakı şəhərləri Qafqazın Xirosiması adlandırıblar".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü Kamal Cəfərov yay sessiyası çərçivəsində qurumun Büro və Daimi Komitəsinin hesabatı ilə bağlı müzakirələrdə söyləyib.

Bildirilib ki, bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağ bir milyondan çox azərbaycanlı məcburi köçkün üçün yüksələn rifah və ümid ocağına çevrilib. Azərbaycan Qarabağın yenidən qurulmasına milyardlarla avro sərmayə yatırır. ABŞ, Çin, İtaliya, Türkiyə, İsrail, İngiltərə və digər ölkələrdən xarici şirkətlər artıq Qarabağda müxtəlif sahələrdə fəaliyyətə başlayıblar. XXI əsrin Xirosiması adlandırılan Ağdamın Baş Planı artıq təsdiqlənib.

Füzulidən Şuşaya gedən "Zəfər" yolu, eləcə də Füzulidən Cəbrayıl və Hadruta gedən yollar tikilməkdədir. Füzuli, Zəngilan və Laçında yeni beynəlxalq hava limanları inşa edilir.

Deputat qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev şəxsən Zəngilanda ilk "Ağıllı kənd" layihəsinin təməl daşını qoydu. Bu yenilikçi layihə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə çatmaq üçün ən mühüm vasitələrdən biridir.

Vurğulanıb ki, ölkəmiz Qarabağı sıfırdan tikir. Yenidən qurulacaq ərazilər Lüksemburqdan dörd dəfə böyükdür. Pənahəli xan Qarabağın təməlini qoydu, onu inkişaf etdirdi. Azərbaycanın onun qurduğu diyarı bərpa edəcəyinə şübhə ola bilməz.

"Əsas problemimiz minalarla bağlıdır. Müharibədən sonra ərazilərimizə daxil olmuş erməni təxribatçı qrupunun saxlanılan üzvlərindən 15 nəfərini təkcə Ağdamda yerləşdirilmiş 97 min mina xəritəsi ilə mübadilə etdik. Xatırlayırsınızsa, yaz sessiyasında Ermənistan nümayəndə heyəti bu cür xəritələrin mövcudluğuna etiraz edirdi. Bir neçə həftə əvvəl bu minalar 2 jurnalist və 1 mülki şəxsin ölümünə səbəb oldu. Ümumilikdə, müharibə qurtarandan bu günədək erməni minaları səbəbindən 144 azərbaycanlı həyatını itirib və ya yaralanıb. Bu, müharibə cinayətidir, bu, beynəlxalq humanitar hüququn və ötən il imzalanmış üçtərəfli Bəyanatın kobud şəkildə pozulmasıdır.

Həmkarlarımı bütün mina xəritələrini təhvil verməsi üçün Ermənistana təzyiq göstərməyə çağırıram", - deyə K.Cəfərov diqqətə çatdırıb.

# *Ceyhun BAYRAMOV:* "Antalya Diplomatiya Forumu Azərbaycan üçün səmərəli müzakirələr məkanı oldu"

"Antalya Diplomatiya Forumunda (ADF) çox vacib və əhəmiyyətli nəticələr əldə olundu. Tərəflərə və geniş auditoriyaya bölgədəki hazırkı vəziyyət, postmünaqişə dövrü ilə bağlı geniş məlumatların verilməsi imkanlarımız oldu. Hazırda işğaldan azad edilmiş ərazilərlə bağlı həyata keçirilən böyükhəcmli bərpa, tikinti-quruculuq işləri barədə ən son məlumatları çatdırdıq. Otuz ilə yaxındır doğma torpaqlarından didərgin düşmüş məcburi köçkünlərin yurdlarına qayıtmasının ölkəmiz qarşısında duran əsas prioritet olduğu vurğulandı".




AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Antalya Diplomatiya Forumunun yekunlarını dəyərləndirərkən ifadə edib.

Antalya Diplomatiya Forumunda keçirilən panellərin, müxtəlif dövlətlərin rəsmiləri, beynəlxalq təşkilatların rəhbərləri və təmsilçiləri ilə görüşlərin faydalı müzakirələrlə yadda qaldığını diqqətə çatdıran nazir deyib: "Ermənistan-Azərbaycan sərhədindəki gərginliklə bağlı məsələlər, nəqliyyat kommunikasiyalarının açılması və bu istiqamətdə həyata keçirilən işlər, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması ilə bağlı mövqeyimiz, bölgəyə gətirmək istədiyimiz uzunmüddətli sülh və inkişaf barədə məlumatlar həmsöhbətlərimiz üçün kifayət qədər maraqlı və cəlbedici oldu".

Nazir bildirib ki, ümumilikdə, Antalya Diplomatiya Forumu dialoq və münaqişələrin danışıqlar yolu ilə həllini istəyən tərəflər üçün səmərəli müzakirə platforması kimi qiymətləndirilməlidir.

# ADA Universitetində 9-cu beynəlxalq festival keçirilir

İyunun 21-də ADA Universitetində 9-cu beynəlxalq festival öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, iyunun 23-dək davam edəcək festival çərçivəsində sərgi təşkil olunub.

Açılış mərasimində çıxış edən ADA Universitetinin prorektoru Fariz İsmayılzadə hər il keçirilən beynəlxalq festivalın əhəmiyyətini vurğulayıb. Prorektor qeyd edib ki, festivalda 10-a yaxın ölkənin Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusunun nümayəndələri, yerli və xarici tələbələr iştirak edirlər. Tədbirin keçirilməsində məqsəd müxtəlif mədəniyyətlərlə tanışlıq və mədəniyyətlər arasında dialoq yaratmaqdır.

Əfqanıstanın ölkəmizdəki səfiri Amanullah Ceyhun, Argentinanın ölkəmizdəki səfiri Sergio Perez Gunella, Almaniyanın ölkəmizdəki səfiri Volfgang Manig, Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı çıxış edərək ölkələri barədə məlumat veriblər. Qeyd olunub ki, sərgidəki stendlərdə festivalda təmsil olunan ölkələrin milli mədəniyyəti, kulinariyası, kitablar, bukletlər və çap məhsulları nümayiş etdirilir.

Sonra festival iştirakçıları sərgi ilə tanış olublar.

# Şuşa Bəyannaməsi - sülh bəyannaməsi

*Əvvəli 1-ci səh.*



Lakin Ermənistan və münaqişəni nizamlamalı olan ATƏT-in Minsk qrupu sözdə bu ideyanı dəstəkləsə də, əməldə "özünüz aranızda hansı razılığa gəlsəniz, biz də onu qəbul edəcəyik" və daha sonra "reallıqla hesablaşmaq lazımdır" kimi məkrli və qəbuledilməz mövqe sərgilədilər.

*Beynəlxalq qurumlardan heç bir təsir və təzyiq görməyən Ermənistan Azərbaycan torpaqlarını öz gücünə işğal etdiyinə inanaraq "qalib millət", "məğlubedilməz ordu" eyforiyasına uyaraq sözün həqiqi mənasında quduru və bizi yeni ərazilərin işğalı ilə hədələməyə başladı.*

**Amma iki vacib məqamı unutmuşdu:**

**Birincisi, zamanı və onun gedişatını!**

**İkincisi isə, Azərbaycana İlham Əliyev kimi siyasət nəhənginin və qüdrətli sərkərdənin rəhbərlik etdiyini!**

*44 günlük Vətən müharibəsi başlayandan bir neçə gün sonra ciddi səhv və yekəbaşlıq etdiyini anladı!*

*Döymədiyi qapı, zəng etmədiyi dövlət başçısı, yalamadığı daban qalmadı!*

Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi və şərti - Ermənistan öz qoşunlarının işğal ərazilərindən çıxarılması ilə bağlı konkret tarix göstərilən qrafik təqdim edilməyənə və kapitulyasiya sənədini imzalamayana qədər hərbi əməliyyatlar dayandırılmadı.

❖ ❖ ❖

**XXI əsrin ən müasir müharibəsini aparan, ən yeni strategiya və taktika tətbiq edən Azərbaycan 44 gün ərzində düşməni təkcə hərb meydanında deyil, diplomatiya sahəsində və informasiya müharibəsində də darmadağın etdi!**

Qısa müddətdə 3 cəbhədə möhtəşəm zəfər qazanılmasının bir neçə səbəbi vardı:

*Əvvəla,* Azərbaycana və onun qüdrətli Ordusuna cənab İlham Əliyev kimi görkəmli dövlət xadimi, mahir sərkərdə rəhbərlik edirdi.

*İkincisi,* ordu qələbəyə köklənmiş, mətin və təcrübəli əsgər və zabitlərlə komplektləşdirilmiş, ən yeni silah və vasitələrlə təmin edilmişdi.

*Üçüncüsü,* dövlət başçısı İlham Əliyev hakimiyyətdə olduğu müddətdə diplomatiya sahəsində böyük uğurlara imza atmış, müəllifi olduğu "hücum diplomatiyası" taktikasını tətbiq etmiş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətləri dünyaya çatdırmış və Ermənistanın işğalçı simasını yetərincə ifşa etmişdi.

*Dördüncü,* hərbi əməliyyatlar davam edən müddətdə cənab İlham Əliyev dünya KİV-inə açıq oldu, jurnalistlərin bütün suallarını cavablandırdı, problemin mahiyyəti ilə bağlı dünya ictimaiyyətini maarifləndirdi, feyk xəbərləri təkzib və ifşa etdi, informasiya müharibəsinin şəriksiz qalibi oldu.

*Beşincisi* və ən əsası, qardaş Türkiyə bu müharibədə əvvəldən sonadək bütün məsələlərdə daim dəstəyimiz oldu, arxamızda durdu, hər bir köməyi göstərdi və indi də göstərir!

**Məhz bu birlik, dostluq, qardaşlıq Qarabağın işğaldan azad olunmasının və bu gün yenidən dirçəldilməsinin təməli, əsasıdır!**

**Şuşa Bəyannaməsi isə tarixi birliyimizin yeni və daha yüksək mərhələsinə keçidinin həm də rəsmən təsdiqlənməsidir!**

❖ ❖ ❖

*Əslində, Şuşa Bəyannaməsi indiyədək iki qardaş ölkə arasında mövcud olan və hamıya bəlli məsələlərin bir daha ucadan söylənilməsidir:*

- Azərbaycana qarşı hər hansı hədə, təhlükə və ya təcavüz törətmək istəyənlər öz qarşılarında həm də Türkiyəni görəcəklər;
- Türkiyə ordu quruculuğunda daim Azərbaycana dəstək olacaq, əsgər, zabit və hərbi mütəxəssislərin hazırlanmasında yaxından kömək edəcək;
- Hər iki dövlətin hərbi sənaye kompleksi birgə fəaliyyət göstərəcək, Türkiyənin ən müasir silahları ölkəmiz üçün əlçatan olacaq;
- Hərbin bütün sahələrində - məsləhətləşmələrdən tutmuş təcavüzə qarşı birgə müdafiəyədək hər iki qardaş dövlət daim bir-birinin yanında olacaq, birgə fəaliyyət göstərəcəkdir.

**Bütün bunlardan öncə Şuşa Bəyannaməsi, əslində, həm də sülh bəyannaməsidir, sülhsevər bəyannamədir:**

O, bölgədəki 6 dövləti Cənubi Qafqazın bütün imkanlarından bərabər şəkildə bəhrələnməyə çağırır və buna şərait yaradır!

Bölgədə təhlükə mənbəyi rolunu oynayan, işğalçı dövlət Ermənistanı əməkdaşlığa dəvət edir, qisasçılıqdan uzaq durmağa, öz dövlətinin və xalqının gələcək inkişafı üçün Zəngəzur dəhlizindən bəhrələnməyə səsləyir!

Hətta qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq şəkildə bildirdi ki, Ermənistanın Azərbaycanla sülh müqaviləsi bağlayacağı təqdirdə Türkiyə dövləti sərhədlərin açılması məsələsinə yenidən baxa bilər, Ermənistan blokadadan qurtular;

*Bütövlükdə Şuşa Bəyannaməsi prinsipcə bölgədə sülhün təmininə, Zəngəzur dəhlizinin açılmasına töhfələr verməklə yeni nəqliyyat dəhlizindən yararlanacaq bütün dövlətlərə təhlükəsiz və səmərəli əməkdaşlıq şəraiti də yaradır!*

*Şuşa Bəyannaməsi əməlcə və mahiyyətcə sülh bəyannaməsidir!*

*Bu sənəd Cənubi Qafqaz regionuna sülh, əmin-amanlıq və əməkdaşlıq təklif edir.*

Həm də onun yolunu, imkanlarını göstərir.

Sənədin arxasında iqtisadi imkanlar, nəhəng layihələr, eyni zamanda, hərbi güc də dayanır!

Azərbaycan, Türkiyə və Rusiya Cənubi Qafqazda sülhün və əməkdaşlığın bərqərar olunmasında maraqlıdır.

Bunu dəfələrlə bəyan etmiş və müxtəlif sənədləri imzalamaqla xoş niyyətlərini ortaya qoymuşlar.

İran və Gürcüstan da bölgənin nəqliyyat və logistika imkanlarından bəhrələnməyin tərəfdarıdırlar.

Nala-mıxa döyən isə təkcə Ermənistandır!

Üçtərəfli Bəyanatı imzalasalar da, qisasçılıqdan əl çəkmədiklərini, sərsəm xülyaları başlarından çıxarmadıqlarını müxtəlif formada səsləndirirlər.

**Seçim yenə də Ermənistanındır!**

**Sülh və əməkdaşlıq, yoxsa dəmir yumruq!**

*Altılıqda olmaq, yoxsa çoxluğa qarşı çıxmaq!*

*"Böyük Ermənistan" söyləyərək kiçik Ermənistanı da itirmək, yoxsa dilənçi və məhv olmuş vəziyyətdən qurtulmaq!*

**Şuşa Bəyannaməsi həm də Ermənistanın qurtuluşu üçün sonuncu şansdır!**

**Bəxtiyar SADIQOV**

# Azərbaycan vahid rəqəmsal ticarət bazarına inteqrasiya olunur

Dördüncü sənaye inqilabının çağırışlarına uyğun olaraq, Azərbaycan Böyük Britaniyadan sonra Rəqəmsal Ticarət Qovşağı (RTQ) yaradan ikinci ölkədir. RTQ Azərbaycana regionda qeyri-neft sektoru üzrə ən rahat investisiya mühiti yaratmağa və xarici investorlar üçün olduqca cəlbedici ölkəyə çevrilməyə imkan verir.

Ölkələr arasında rəqabətin gücləndiyi dövrdə belə bir islahatın aparılması mükəmməl düşünülmüş iqtisadi qərardır. Rəqəmsal Ticarət Qovşağı vasitəsilə biz həmçinin dünyada ilk mobil rezidentlik və Estoniyadan sonra ikinci elektron rezidentlik təqdim edən ölkəyik. Xatırladaq ki, ilk elektron rezidentlik Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Jankauskasa təqdim edilmişdi. Bir neçə gün əvvəl isə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) Azərbaycanın rəqəmsal ticarətlə bağlı pilot layihədə iştirak etdiyi barədə məlumat verib.

Aydındır ki, yeni texnologiyalara yiyələnmədən müasir dünya ticarətində uğur qazanmaq, bazara daha mükəmməl alətlərlə dəstəklənən məhsul və xidmətlər təqdim etmək mümkün deyil. Azərbaycan dünyanın bu sahədə hazırda mövcud olan ən yeni təcrübəsindən uğurla faydalanır. Avropa İttifaqının "EU4Digital" layihəsi çərçivəsində "Azexport.az"la əməkdaşlığa dair dərc olunan məqalə də müasir dünyamızda elektron bazarın üstünlüklərinə önəm verdiyimizi təsdiq edir.

Bu baxımdan Avropa İttifaqının təşəbbüsü ilə həyata keçirilən layihənin rəsmi internet səhifəsində "Azexport.az" internet portalının da iştirak etdiyi pilot layihə barədə məqalənin dərc edilməsini ölkəmizin bu sahədəki təşəbbüslərinə ayrılan xüsusi diqqət kimi dəyərləndirmək mümkündür. Portalın rəhbəri Ayxan Qədəşov bildirib ki, pilot layihənin həyata keçirilməsində başlıca məqsəd Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələri arasında yaradılan vahid rəqəmsal ticarət bazarının iş prinsipinin real təcrübədə yoxlanılması, sınaqdan keçirilməsidir.

Yaradılan rəqəmsal bazarın fəaliyyət sisteminin ən müasir standartların tələblərinə cavab verməsi xüsusilə diqqət çəkir. Yeni sistemin mükəmməlliyi həm də ondan ibarətdir ki, məlumatların yalnız bir dəfə daxil edilməsi onun çalışması üçün yetərlidir. A.Qədəşov Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələri arasında yaradılan bu vahid rəqəmsal ticarət bazarının iş prinsipini belə izah edir: "Sifariş daxil olduqda satıcı tərəfindən daxil edilən məlumatlar sistem tərəfindən avtomatik hər iki ölkənin (alıcı və satıcı) gömrük və poçt orqanlarına da təqdim olunur".

Qeyd edək ki, "İSAR Group" şirkəti tərəfindən Azərbaycanda istehsal olunan taxta əl işi məhsulunun Almaniyaya göndərilməsi pilot olaraq artıq uğurla reallaşdırılmışdır. Beləliklə, pilot layihədən əldə olunan təcrübənin digər Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələrində də tətbiq edilməsi nəzərdə tutulur.

Daha bir maraqlı fakt odur ki, "Azexport.az"ın layihədə Azərbaycanı təmsil etməsi ilə yanaşı, Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələri arasında yaradılan vahid rəqəmsal ticarət bazarı platformasının idarəedilməsi də bu internet portalına həvalə olunmuşdur.

Ümumiyyətlə, "EU4Digital" layihəsinin başlıca məqsədi Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələri arasında vahid rəqəmsal ticarət bazarının yaradılması və rəqəmsal iqtisadiyyatın tətbiqi sahələrini genişləndirməkdir. Belə bir pilot layihədə Azərbaycanın iştirakı onun rəqəmsəl dünya bazarından faydalanmaq, müasir dünyanın tələblərinə cavab verən çevik ticarət modelləri qurmaq imkanlarını genişləndirir. Yeni sistemlərin tətbiqi öz növbəsində yeni işçi qüvvəsinin cəlb olunmasını tələb edir. Belə olan halda isə həm rəqəmsal sahədə məşğulluq səviyyəsinin artması zərurətə çevrilir, həm də iqtisadi artımın dəstəklənməsi kimi istiqamətlərin hədəfə götürülməsi aktuallaşır.

Rəqəmsal ticarətin inkişaf etdirilməsi sözsüz ki, yerli sahibkarlar üçün də böyük imkanlar yaradır. Belə ki, onlar ixrac prosedurlarının daha sadə, şəffaf və sürətli həyata keçirilməsi məqsədilə ixrac zamanı tələb olunan mənşə sertifikatı, fitosanitar, keyfiyyət, baytarlıq sertifikatı, gömrük bəyənnaməsi, sərbəst satış sertifikatı kimi sertifikatlarını onlayn formada və yalnız bir müraciətlə "Vahid İxrac Ərizəsi" vasitəsilə təqdim edirlər. Bu da yerli ixracatçılara vaxta və xərclərə qənaət etməyə imkan yaradır.

RTQ eyni zamanda yerli sahibkarlar üçün yeni bazarlar da açmaqdadır. Belə ki, Azərbaycan MDB məkanında bu tip sertifikatı təqdim edən üçüncü ölkədir. İndi "Gazelli Group", "Azersun", "AzNar QSC", "Apiaz MMC", "Brightman MMC" və digər şirkətlər artıq məhsullarını ixrac etmək üçün bu sertifikatlardan faydalanırlar. Əvvəllər ixrac zamanı məhdudiyyətlərlə qarşılaşan müvafiq məhsullar artıq Okeaniya, Körfəz ölkələri, ABŞ, Çin, İndoneziyaya və digər böyük bazarlara çıxış əldə edirlər.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan neftinin və qazının dünyaya yolu Türkiyədən keçir

Azərbaycan-Türkiyə iqtisadi əlaqələrində neft-qaz sektoru önəmli rola malikdir. Həm də bu sahədəki əməkdaşlıq çoxşaxəli xarakter daşıyır. Türkiyənin tanınmış şirkətləri Azərbaycanın ən iri neft-qaz layihələrində iştirak edir. Eləcə də Azərbaycan qardaş ölkədə bir sıra əhəmiyyətli müəssisələrin yaradılmasına sərmayə yatırıb.

Azərbaycan netfinin və qazının dünyaya yolu Türkiyədən keçir. Təsadüfi deyil ki, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ndə də bu sahədəki əməkdaşlığın davam etdirilməsi məsələsi özünə mühüm yer alır.

Azərbaycan-Türkiyə iqtisadi əlaqələrindən söhbət gedəndə, ilk növbədə, müəllifi Ulu Öndər Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri yada düşür. 2006-cı ildə tam sistem kimi istifadəyə veriləndən bəri bu kəmər 1768 kilometr məsafə keçərək Azərbaycan neftini Bakı yaxınlığındakı Səngəçal terminalından Türkiyənin Ceyhan limanınadək nəql edir. Oradan isə neftin dünya bazarlarına yolu başlanır.

BTC-dən az sonra istifadəyə verilən Bakı-Tbilisi Ərzurum kəməri isə Azərbaycan qazını ixrac edir. Məhz bu kəmər ölkəmizin həm də qaz diyarı olduğunu dünyaya bəyan etdi və onu mavi yanacaq ixracatçısı kimi tanıtdı. Əslində, Bakı-Tbilisi-Ərzurum kəməri sonralar reallaşan "Cənub qaz dəhlizi"nin bünövrəsini təşkil etdi. Belə ki, 2011-ci il dekabrın 24-də TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) ilə bağlı Azərbaycan və Türkiyə arasında anlaşma memorandumu imzalandı. 2012-ci il iyunun 26-da İstanbulda boru kəməri sisteminə dair sazişə də imza atıldı və sənəd hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqləndi. Bununla da Azərbaycan və Türkiyə siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində TANAP-ın tikintisi ilə bağlı razılıq əldə edildi. 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə TANAP-ın təməli qoyuldu. İstifadəyə verildiyi vaxtdan təxminən il yarım sonra - 2019-cu il noyabrın 30-da TANAP-ın qazı Avropa sərhədinədək çatdıran ikinci fazasının çəkilişi yekunlaşdı.

TANAP Azərbaycanın və Türkiyənin, hər iki ölkənin dövlət başçılarının birgə səyi nəticəsində gerçəkliyə çevrilən unikal layihə olduğuna görə onların birliyini və qardaşlığını bir daha nümayiş etdirir. Prezident İlham Əliyev kəmərin əhəmiyyəti barədə belə demişdir: "TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür".

Xatırladaq ki, TANAP "Cənub qaz dəhlizi"ni yaradan üç kəmərdən ikincisi və böyüyüdür. O, Türkiyənin ərazisində 1850 kilometrdən çox məsafə qət edir. Bir tərəfdən CQBK-ya (Cənubi Qafqaz Boru Kəməri), digər tərəfdən TAP-a ( Trans-Adriatik Qaz Boru Kəməri) bağlandığı üçün TANAP-ı "Cənub qaz dəhlizi"nin "birləşdirici halqası" da adlandırırlar.

Şuşa Bəyannaməsində tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut saxələndirilməsini təmin edən strateji "Cənub qaz dəhlizi"nin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolunu bir daha vurğulamışlar. Bildirmişlər ki, "Cənub qaz dəhlizi"nin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam etdirəcəklər.

Uzun illərdir bir sıra Türkiyə şirkətləri Azərbaycanın ən iri neft, qaz və ixrac layihələrində iştirak edirlər. Başda TPAO - "Türkiyə Petrolları" olmaqla, onlar özlərini etibarlı tərəfdaş kimi təsdiqləmişlər. TPAO "Azəri-Çıraq-Günəşli" layihəsində 5,73 faizlik payla iştirak edir. BTC-nin 11 səhmdarından biri olan bu şirkətin layihədəki iştirak payı 6,53 faizdir. TPAO, eləcə də, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrində tərəfdaşlıq edən 7 dünya şöhrətli şirkət arasında özünə yer alıb. Hər iki layihədə 19 faiz iştirak payına malikdir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşa Bəyannaməsi imzalandıqdan sonra mətbuata bəyanatında bu barədə demişdir: ""Türkiyə Petrolları" başda olmaqla, bir çox şirkətimizin Azərbaycanda mühüm investisiyaları var. Eyni qaydada, SOCAR başda olmaqla, Azərbaycan şirkətlərinin Türkiyədəki sərmayələri bizi məmnun edir. Təkcə Türkiyədə deyil, lazım gələrsə, SOCAR ilə "Türkiyə Petrolları"nın üçüncü ölkələrdə də investisiya qoymaq məsələsini qardaşımla birlikdə müzakirə etdik. İnşallah, bunun üzərində də işləyirik və işləyəcəyik".

SOCAR-ın qardaş ölkədəki layihələrinə gəldikdə isə, bir neçə ildir İzmir şəhərinin Əliağa bölgəsində uğurla fəaliyyət göstərən STAR Neft Emalı Zavodunun adını çəkmək kifayətdir. STAR zavodu SOCAR-ın Azərbaycandan kənarda inşa etdiyi ilk neft emalı zavodudur. Bu, şirkətin biznes portfelini şaxələndirmək məqsədilə xaricdə həyata keçirdiyi layihələrdən biridir. STAR həm Azərbaycanın, həm də Türkiyənin iqtisadiyyatına gəlir gətirən və gələcəkdə töhfələrini daha da artırmağı hədəfləyən bir müəssisədir.

"Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik", - dedi Azərbaycan Prezidenti İlham Əliyev. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bəyan etdi ki, əməkdaşlığımızı bundan sonrakı prosesdə daha da gücləndirəcəyik və gücləndirərək yolumuza da davam edəcəyik.

Beləliklə, qarşıdakı dövrdə Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının miqyası daha da genişləndiriləcək. Bu, hər iki dövlət başçısının qərarı, hər iki ölkənin vətəndaşlarının mənafeyinə xidmət edən məramdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Qarabağ bir millət, iki dövlətin Zəfər meydanıdır



## Qars müqaviləsindən Şuşa Bəyannaməsinədək...

### Qarabağ Zəfəri Azərbaycan-Türkiyə müttəfiqliyinin təntənəsi oldu

*Əvvəli 1-ci səh.*

Qarabağın yüksəkliyindən dünyaya çatdırılan mesajlar Azərbaycan və Türkiyə qardaşlığının bariz nümunəsi olaraq, sarsılmaz dostluğu, əzmkarlığı, güclü sevgini və heç zaman parçalanmayacaq böyük vəhdəti nümayiş etdirdi. Ən əsası, bu mesajlar təhdidlər deyildi, onlar hər kəsi sülhə, inkişafa, tərəqqiyə çağırdı. Qədim məkanımız Şuşadan səslənən bu gözəl mesajlar ölkəmizin möhtəşəm tarixinə yazılacaq, şanlı səhifələrində yer alacaq neçə-neçə zəfərin carçısıdır.

Şuşa Bəyannaməsinin imzalanmasından sonra hər kəs regiondakı yeni reallıqları, inkişafı, sülhün tam təminatını səbirsizliklə gözləyir.

### Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini daha da gücləndirəcək

Şuşa Bəyannaməsi 100 il əvvəl - 1921-ci il 13 oktyabrda imzalanmış Qars müqaviləsindən sonra Türkiyənin Azərbaycana dəstəyini ən güclü formada nümayiş etdirən rəsmi sənəd oldu. Qars müqaviləsinə istinad edilən Bəyannamə öz formatına görə ondan daha əhatəli sənəddir. Bu sənəddə Zəngəzur dəhlizinin açılması ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi, iqtisadiyyat, təhsil, müasir texnologiyalar üzrə əməkdaşlığın daha da dərinləşdirilməsi, Silahlı Qüvvələrimizin yeni çağırışlara uyğun olaraq yenidən formalaşdırılması, modernləşdirilməsi, iki ölkənin silahlı qüvvələrinin fəaliyyət qabiliyyətinin birlikdə artırılması və digər tədbirlər nəzərdə tutulur.

Bəyannamə Ermənistanın Azərbaycan torpaqlarına qarşı irəli sürdüyü iddialara da son qoyur. Sənəddə qeyd edilir ki, tərəflərdən hər hansı birinin ərazi bütövlüyünə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edilərsə, onun aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçiriləcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstəriləcək.

Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Ceyhun Məmmədovun sözlərinə görə, Şuşa Bəyannaməsinin imzalanması, hər iki ölkə liderinin verdiyi bəyanatlar iki dost, qardaş ölkə arasında əlaqələrin inkişafına öz ciddi töhfəsini verəcək. Ölkələr arasındakı qarşılıqlı əlaqələr daha da genişlənəcək: "Bu Bəyannamə ötən əsrdə imzalanan Qars müqaviləsi qədər böyük əhəmiyyətə malikdir. Bəyannamə iki ölkənin müxtəlif sahələr üzrə olan əməkdaşlığını daha da sürətləndirəcək. Türkiyə hər zaman olduğu kimi, gələcəkdə də öz mənəvi dəstəyini Azərbaycandan əsirgəməyəcək".

### Sənəd gələcək nəsillərin firavan yaşamasında böyük rol oynayacaq

Mövzu ilə bağlı açıqlamasında Milli Məclisin deputatı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Ramin Məmmədov deyir ki, Bəyannamə regional siyasətə təsir etmək baxımından çox əhəmiyyətlidir. Bu sənəd bölgədə təhlükəsizliyin təmin olunmasına töhfə verməklə gələcək nəsillərin firavan yaşamasında böyük rol oynayacaq: "Bu tarixi sənədlə Azərbaycan-Türkiyə qardaşlığı müttəfiqliklə möhkəmləndirildi. Prezident İlham Əliyev həmin Bəyannaməni həm keçmiş tariximizə verilən qiymət, həm də gələcək nəsillərə ötürdüyümüz miras kimi dəyərləndirdi. Bu, bir daha onu göstərir ki, Azərbaycan və Türkiyə prezidentləri qlobal çağırışlarla dolu bir zamanda hər iki ölkənin inkişafı istiqamətində çox mühüm və kifayət qədər əsaslı bir sənədə imza atıblar. Sənədin preambulasına diqqətlə baxdıqda çox aydın şəkildə görürük ki, iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək, 9 fevral 1994-cü il tarixdə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq imzalanmış Bəyannamə Azərbaycan və Türkiyə arasındakı münasibətlərə böyük töhfə verəcək, həmçinin hər iki ölkədə cəmiyyətin inkişafına müsbət təsir edəcək".

### Bəyannamə üçüncü tərəfə qarşı yönəlməyib

Ramin Məmmədov hesab edir ki, Bəyannamə hər hansı üçüncü tərəfə qarşı yönələn bir müqavilə deyil: "Şuşa Bəyannaməsi beynəlxalq hüququn prinsip və normalarına, eyni zamanda Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq, qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsi üçün mühüm rol oynayacaq. Qarabağın inkişafına yönəlmiş addımlar, Azərbaycanın Cənubi Qafqazda, ümumiyyətlə, genişlənən coğrafiyada rolunun artması, bu coğrafiyada Türkiyənin qlobal güc kimi rolunun güclənməsini nəzərə alaraq deyə bilərik ki, ölkələrimiz arasında bu müstəvidə müttəfiqlik gələcəkdə də davam etdiriləcək. Düşünürəm ki, bu da xalqlarımızın mütərəqqi inkişaf prosesinin davam etməsinə kifayət qədər münbit zəmin yaradacaq".

### Qarabağın təhlükəsizliyi Türkiyənin təminatı altına alındı

"Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının, "Bir millət, iki dövlət" reallığının, siyasi-hərbi və iqtisadi müttəfiqliyinin məntiqi davamı, irəliyə doğru atılan növbəti addımıdır". Bunu isə Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Sadiq Qurbanov bildirdi. Qeyd etdi ki, bu sənədin, imzalanması eyni zamanda qardaşlığın yeni səhifələrini açacaq fövqəladə bir hadisədir: "Xüsusi ilə bildirim ki, 15 iyun 2021-ci tarixi ən yeni dövr tariximizin, Qafqaz tarixinin, Türk dünyası tarixinin yeni mərhələsinin əsasını qoydu. Tarixə əsaslanan Bəyannamədə Ulu öndərlərimiz Heydər Əliyev və Mustafa Kamal Atatürkün kəlamlarının yer alması keçmişimizin sağlam və təmiz, gələcəyimizin isə parlaq olacağına bir işarədir".

Şuşa Bəyannaməsində iki qardaş ölkənin bütün həyati əhəmiyyətli məsələləri və sahələri ilə bağlı müddəaların əksini tapdığını deyən Sadiq Qurbanovun sözlərinə görə, sənəd regional təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyətə malikdir. Bu sənəd Azərbaycanın, o cümlədən Qarabağın təhlükəsizliyini Türkiyənin təminatı altına almış oldu. Bu, erməni separatizminə və onun havadarlarına ciddi xəbərdarlıq mahiyyəti daşıyır. Qarabağın istənilən məntəqəsinə hücum edib işğal etmək istəyən qüvvə bundan sonra Azərbaycanla yanaşı, qarşısında Türkiyəni də görəcək.







Bəyannamədə tarixi Qars müqaviləsinə istinadın edilməsi isə sülhə çağırışdır. "Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra imzalanan müttəfiqlik haqqında birgə Bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir", - deyə komitə sədri əlavə edir.

### Qars müqaviləsinə qarşı 100 illik mübarizə heç bir nəticə vermədi

Sadiq Qurbanov vurğulayır ki, Şuşa Bəyannaməsi ilə tarixi Qars müqaviləsi artıq yeni bir mərhələyə və regionun sabitliyinin beynəlxalq hüquqi təminatına çevrildi: "Heydər Əliyev Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini daim yüksək qiymətləndirib. Ümummilli Lider "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir" deyib".

Komitə sədri nəzərə çatdırır ki, yüzilliklər boyu dünyanın bir çox güc mərkəzlərindən aldığı güclə "böyük Ermənistan" xəstəliyinə yoluxan erməni xalqının tarixi Azərbaycan torpaqlarına zaman-zaman torpaq iddiaları irəli sürməsinin və gənc nəsillərinə iddialarının guya əsaslı olmasına dair yalanlar aşılamasının şahidiyik: "Qədim Azərbaycan torpağı olan Naxçıvan diyarı da davamlı şəkildə erməni xislətinin hədəfinə çevrilib. Təsadüfi deyil ki, Qars müqaviləsi üçün mənbə rolu oynayan "Moskva müqaviləsi" dostluq və qardaşlıq haqqında sülh müqaviləsi adlanır. SSRİ-nin hələ dünya birliyi qarşısında super gücə çevrilməsi müəmmalı göründüyü bir tarixi şəraitdə məhz bağlanmış müqavilələrə sovet Rusiyası Türkiyə ilə sülh və dostluq prinsipləri ilə yanaşmağa məcbur idi. Qars müqaviləsi tarixin diktəsi idi. Naxçıvan ərazisini ələ keçirməyə çalışan ermənilərə yerli əhalinin müqaviməti böyük idi, ona görə də Naxçıvan Türkiyənin dəstəyi ilə Azərbaycanın tərkibində Muxtar Respublika statusu qazana bildi. Bu muxtariyyətin qorunmasında Qars müqaviləsinin təminat rolu oynaması da artıq tarixdə öz təsdiqini tapmış gerçəklikdir. Lakin ermənilərin müxtəlif siyasi xadimləri, hətta ən yüksək səviyyədə vəzifə daşıyan şəxsləri siyasi kluarlarda Qars müqaviləsinin keçərsiz olduğunu səsləndirməyə çalışırlar".

Qars müqaviləsinin ləğv edilməsinə yönəlmiş yüzillik "mübarizə"nin heç bir nəticə vermədiyini deyən Sadiq Qurbanovun sözlərinə görə, 100 il sonra məhz Ali Baş Komandan Prezident İlham Əliyev tarixi Şuşa Bəyannaməsində Qars müqaviləsinə sadiqliyini təsdiq etməklə Azərbaycanın Qafqazın lider dövləti, regionda sülhün və sabitliyin əsas qarantının məhz Türkiyənin olduğunu vurğuladı.

### Dostluğun və qardaşlığın təntənəsi

Şuşa Bəyannaməsi iki ölkənin güclü dövlət başçısı - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan birliyinin getdikcə gücləndirdiyi Azərbaycan-Türkiyə münasibətlərini digər ölkələrin həsəd apara biləcəyi qədər zirvələrə yüksəldir, sarsılmaz edir. Bəyannamənin imzalanması möhkəm təməllər üzərində qurulan Azərbaycan-Türkiyə əməkdaşlığında yeni dövrün başlanılması deməkdir. Hər zaman Azərbaycanın yanında olan Türkiyə bu sənədlə ölkəmizə göstərdiyi əvəzsiz dəstəyini daha da gücləndirəcək. Türkiyə-Azərbaycan birliyi iqtisadi əlaqələrin genişlənməsinə, enerji, kommunikasiya layihələrinin səmərəli həyata keçirilməsinə böyük təkan verəcək.

Bu barədə danışan Sadiq Qurbanov deyir ki, Azərbaycan və Türkiyə arasında qarşılıqlı əlaqələrinin, hərbi və müdafiə sənayesi, elm, siyasi, iqtisadi və digər sahələr üzrə dinamik artımla davam etməsində, bütün bu nailiyyətlərin əldə olunmasında dövlət başçılarımızın siyasi iradələri, qardaşlıq münasibəti xüsusi rol oynayır: "Dünyanın heç bir dövlət və liderində olmayan belə siyasi iradəni və qardaşlıq münasibətlərinin bariz nümunəsi kimi bir neçə hadisəni xatırlatmaq istəyirəm. Azərbaycan Prezidenti İlham Əliyev 2014-cü il aprelin 24-də Praqada Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitinin beş illiyinə həsr olunmuş plenar iclasında təcavüzkar Ermənistan dövlətinin prezidenti Serj Sarkisyanın sammitdə Türkiyə təmsilçisinin iştirak etməməsindən istifadə edərək növbəti spekulyasiyasına, rəsmi Ankaranın ünvanına böhtan və iftira söyləməsinə və qondarma "soyqırımı" məsələsini qabardaraq heç bir tarixi fakta əsaslanmayan iddialar səsləndirməsinə dərhal reaksiya verdi. "Türkiyə nümayəndəsi toplantıda yoxdur, amma mən burdayam" deyərək, erməni rəhbərini yerində oturtdu.

Bundan başqa, 2016-cı ilin ilk aylarında Türkiyədə törədilən amansız terror aktları səbəbindən həmin il Bakıda keçirilməsi nəzərdə tutulan Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclası Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərlərinin baş tutmaması səbəbindən iki dəfə təxirə salındı. Belə bir şəraitdə Azərbaycan Prezidenti İlham Əliyev qardaş Türkiyəyə jest edərək Ankaraya getmək barədə qərar qəbul etdi. Beləliklə, Azərbaycan dövlətinin başçısı Türkiyəyə səfər etdi və Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclası Bakıda yox, Ankarada keçirildi. Hər iki beynəlxalq səviyyəli siyasi hadisə günlərlə dünya gündəmini zəbt etdi".

Sadiq Qurbanov bildirdi ki, hər günü şanlı tarixə çevrilmiş 44 günlük müharibə günlərində də bu qardaşlıq öz sarsılmazlığını sübut etdi. Türkiyə hər zaman olduğu kimi, Vətən müharibəsində də türk millətini qürurlandıracaq münasibət sərgilədi. Qardaş Türkiyənin böyük nümayəndə heyəti ilə dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirakı və Prezident İlham Əliyevin paraddakı çıxışı dediklərimizin təsdiqidir: "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir" deməklə cənab Prezidentimiz xalqımızın təşəkkürünü ifadə etdi.

### Azərbaycanla Türkiyənin mövqeləri üst-üstə düşür

"Azərbaycanla Türkiyə arasındakı əlaqələr uzun illərdir strateji xarakter alıb və sürətlə inkişaf edir. Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ikinci dövlət yoxdur. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdiriblər". Bunu isə deputat Ceyhun Məmmədov deyir. Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra bu istiqamətdə mühüm addımlar atıldı: "Heydər Əliyev Azərbaycan xalqına müraciətində "Türkiyəyə münasibətdə xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəfdaşıdır. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə də öz töhfəsini verir", - deyə bildirmişdi.

Prezident İlham Əliyev isə iki ölkə arasında münasibətlərin mövcud vəziyyətini belə dəyərləndirir: "Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Bizi birləşdirən həm tarixi köklər, həm mədəni əlaqələr bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır".

Ceyhun Məmmədov hesab edir ki, Azərbaycanla Turkiyənin mövqeləri beynəlxalq təşkilatlarda müxtəlif beynəlxalq və regional məsələlər üzrə üst-üstə düşür. Türkiyə və Azərbaycan arasında əlaqələrin gücləndirilməsi Qafqaz bölgəsində sabitliyin təmin edilməsinə yönəlib. Onun sözlərinə görə, Azərbaycan müstəqillik qazandıqdan sonra Türkiyə ölkəmizin Silahlı Qüvvələrinin formalaşmasına yardım göstərib, kadrların hazırlanması, hərbi məktəblərin proqramlarının formalaşması işində böyük rol oynayıb. Hər il Azərbaycan və Türkiyə silahlı qüvvələri birgə hərbi təlimlər keçirlər.

Türkiyənin Azərbaycana daim dəstək göstərdiyini deyən Ceyhun Məmmədov xatırladır ki, qardaş ölkə Vətən müharibəsi dövründə, eləcə də ondan əvvəl daim Azərbaycanın yanında olub, dövlətimizə həm siyasi, həm də mənəvi yardım göstərib: "Türkiyə rəsmiləri dəfələrlə Azərbaycana səfər edərək ciddi dəstəklərini ifadə etdilər. Azərbaycan bu dəstəyi yüksək qiymətləndirir və heç zaman unutmaycaq".

### Ermənistan nəticə çıxarmalıdır

Rəcəb Tayyib Ərdoğanın son səfərinin əhəmiyyətini xüsusilə vurğulayan Ceyhun Məmmədov Türkiyə Prezidentinin öz çıxışında Ermənistana və havadarlarına ciddi mesajlar verdiyini də nəzərə çarpdırdı. O bildirir ki, Ermənistan baş verənlərdən ciddi nəticə çıxarmalıdır: "Bu ölkənin bir yolu var. O da bölgə ölkələri ilə əməkdaşlıq etməkdir. Ermənilər bunu yubanmadan anlamalıdırlar. Əgər Ermənistan tərəfi kiçik təxribata belə cəhd etsə, onun qarşısı qətiyyətlə alınacaq. Digər tərəfdən, həm Azərbaycan, həm də Türkiyə Naxçıvan dəhlizinə xüsusi önəm verir. Rusiyanın da bu layihənin həyata keçirilməsində xüsusi marağı var. Bu layihənin reallaşması bütövlükdə regionda təhlükəsizliyin təmin olunmasına, sülh və əmin-amanlığın bərqərar olmasına ciddi töhfələr verəcək. Həmçinin Azərbaycanı loqistika mərkəzinə çevirmək üçün yeni imkanlar yaradacaq. Artıq proses sürətlə gedir və bu layihələrin qarşısını heç kim ala bilməz. Bunu Ermənistan tərəfi də ciddi nəzərə almalıdır. Populist və revanşist bəyanatlar Ermənistanı uçuruma daha da yaxınlaşdırır. Bu isə onun iqtisadiyyatının çöküşünə, siyasi böhranın daha da dərinləşməsinə aparıb çıxaracaq".

Azərbaycan və Türkiyə prezidentlərinin Şuşada imzaladığı birgə Bəyannamə regionda sülh və təhlükəsizliyin, yeni əməkdaşlıq imkanlarının təşviq edilməsinə yönəlib. Azərbaycan-Türkiyə birliyinin dəstəyi ilə regionda yeni əməkdaşlıq formatının reallaşması imkanları yaranıb. Regiondakı bütün ölkələrin maraqlarına xidmət edəcək bu əməkdaşlıq onların hər birinə iqtisadi dividendlər gətirə bilər.

Ermənistan Azərbaycan-Türkiyə əməkdaşlığının yaratdığı unikal imkanlardan yararlanmaqla özünün çox zəif iqtisadiyyatını inkişaf etdirmək şansı əldə etsə də, o, bundan yenə də müxtəlif bəhanələrlə boyun qaçırır. Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərini və Şuşa Bəyannaməsinin imzalanmasını həmişəki kimi qısqanclıqla qarşılayan Ermənistan özünün çirkin niyyətindən əl çəkmir. Ermənistanın xarici işlər nazirliyi Azərbaycan və Türkiyə liderləri tərəfindən onlara təklif edilən regional əməkdaşlıq platformasını "erməni xalqına qarşı təhlükə" və "bölgə üçün təhdid" kimi qəbul etdiklərini açıqlayıb. Təklif olunan humanizm qarşılığında belə münasibət sərgiləməkdən utanmayan Ermənistan ona təklif edilən potensial inkişaf perspektivlərini sevinclə dəyərləndirməli olduğu halda, yenə də özünü əməkdaşlıq platformalarından təcrid etməyə üstünlük verir.

Əslində, sülh, əməkdaşlıq meyillərindən daim uzaq olan Ermənistan bu cür mövqeyi ilk dəfə nümayiş etdirmir. Ancaq bütün bunlara baxmayaraq, gələcək perspektivləri Ermənistandan fərqli olaraq daha düzgün qiymətləndirən Azərbaycan Türkiyənin dəstəyi ilə yeni əməkdaşlıq platformalarının ortaya qoyulması üçün bütün səylərini göstərir. Azərbaycan XİN açıqlayıb ki, əməkdaşlıqdan faydalanmaq və ya bunun əksi artıq Ermənistanın verəcəyi qərardır. Azərbaycan və Türkiyə isə Şuşa Bəyannaməsində də ehtiva olunduğu kimi, beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərini davam etdirəcəklər.

*Sözsüz ki, bu səylər hər zaman olduğu kimi, yenə də uğurla nəticələnəcək. Çünki türk xalqının birliyi bundan qeyrisinə yol vermir və verməyəcək!*

***İlhamə İSABALAYEVA, "Azərbaycan"***

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, №11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, №11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013, № 11, maddələr 1328, 1334, № 12 (I kitab), maddələr 1439, 1441, 1454, 1455; Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 266-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 150.1.13.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 150.1.13.5-ci maddə əlavə edilsin:

"150.1.13.5. verilmiş borcun təminatı kimi fərdi sahibkarın əmlakı çıxış etdikdə ipoteka saxlayanın xeyrinə yüklü edilmiş əmlakın "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 43-cü maddəsinə uyğun olaraq ipoteka saxlayan tərəfindən əldə edilməsi.".

2. 150.3-1-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

"Hərrac təşkilatçısı kimi çıxış edən ixtisaslaşdırılmış təşkilatlar bu Məcəllənin 150.1.13.5-ci maddəsinə uyğun olaraq ödəmə mənbəyində vergi tutulmayan əməliyyatlar üzrə hərracın nəticələri rəsmiləşdirildiyi gündən 10 (on) iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi formada məlumatı vergi orqanına təqdim etməyə borcludurlar.

Verilmiş borcun təminatı kimi vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərin ipoteka saxlayanın xeyrinə yüklü edilmiş əmlakı "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 43-cü maddəsinə uyğun olaraq ipoteka saxlayan tərəfindən əldə edildikdə bu Məcəllənin 220.8-ci və 220.8-1-ci maddələrinə uyğun olaraq hesablanmış sadələşdirilmiş vergi hərrac təşkilatçısı kimi çıxış edən ixtisaslaşdırılmış təşkilatlar tərəfindən ipoteka saxlayandan tutulur.".

3. Aşağıdakı məzmunda 150.3-5-ci maddə əlavə edilsin:

"150.3-5. Bu Məcəllənin 150.1.13.5-ci maddəsində nəzərdə tutulmuş halda fərdi sahibkarlar bu Məcəllənin 220.8-ci və 220.8-1-ci maddələrinə uyğun olaraq sadələşdirilmiş vergini hesablamağa və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi forma üzrə bəyannaməni vergi orqanına verməyə borcludurlar.".

4. 159.7-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Verilmiş kreditin təminatı kimi bankın və ya digər kredit təşkilatının xeyrinə ipoteka ilə yüklü edilmiş və hərrac yolu ilə bankın və ya digər kredit təşkilatının mülkiyyətinə keçmiş, habelə "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 43-cü maddəsinə uyğun olaraq əldə olunmuş əmlakın təqdim edilməsi verilmiş kreditlər üzrə ödənilməyən əsas borc dəyəri həddində vergi tutulan əməliyyat sayılmır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2021-ci il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 25 may tarixli 326-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 25 may tarixli 326-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 150.3-1-ci maddəsinin ikinci abzasında və 150.3-5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 150.3-1-ci maddəsinin ikinci abzasında və 150.3-5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1318 nömrəli Fərmanı) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə ", 150.3-4-cü" sözləri "maddələrində, 150.3-1-ci maddəsinin ikinci abzasında, 150.3-4-cü, 150.3-5-ci" sözləri ilə əvəz edilsin;

2.2. 1.10-cu bənddə ", 150.3-4-cü" sözləri "maddəsində, 150.3-1-ci maddəsinin ikinci abzasında, 150.3-4-cü, 150.3-5-ci" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 150.3-1-ci maddəsinin ikinci abzasına uyğun olaraq, hərrac təşkilatçısı kimi çıxış edən ixtisaslaşdırılmış təşkilatlar tərəfindən ödəmə mənbəyində vergi tutulmayan əməliyyatlar üzrə təqdim edilməli məlumat formasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 25 may tarixli 326-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 25 may tarixli 326-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyun 2021-ci il*

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 7, maddə 1202, № 8, maddə 1369, № 11, maddə 1681, № 12, maddə 1908; 2020, № 5, maddə 515, № 7, maddələr 822, 832, 839, 843, № 12 (I kitab), maddələr 1423, 1435; 2021, № 1, maddə 8; Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 277-VIQD nömrəli Qanunu) 139-1.1.2-ci maddəsində "protokol" sözündən sonra ", habelə təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunmasına dair protokol" sözləri əlavə edilsin.

**Maddə 2.** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603; 2006, № 6, maddə 482; 2007, № 8, maddə 745; 2008, № 3, maddə 154; 2009, № 12, maddə 948; 2011, № 11, maddə 983; 2012, № 6, maddə 509, № 7, maddə 668, № 11, maddə 1053; 2013, № 6, maddələr 607, 623, № 7, maddə 791, № 12, maddə 1484; 2014, № 1, maddə 7, № 2, maddə 97, № 6, maddələr 597, 604; 2015, № 3, maddə 255; 2016, № 4, maddə 645, № 6, maddə 990, № 7, maddə 1244, № 11, maddələr 1770, 1775; 2017, № 5, maddə 738, № 6, maddə 1037, № 10, maddə 1772, № 11, maddə 1954, № 12 (I kitab), maddə 2235; 2018, № 2, maddə 167, № 3, maddə 382, № 5, maddə 852; 2019, № 1, maddə 25, № 4, maddə 593; 2020, № 7, maddə 843, № 12 (I kitab), maddə 1423) 8.0.2-ci maddəsinə "protokol" sözündən sonra ", habelə təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunmasına dair protokol" sözləri əlavə edilsin.

**Maddə 3.** "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 461; 2007, № 5, maddə 436, № 11, maddə 1053; 2008, № 5, maddə 348; 2009, № 12, maddə 948; 2011, № 7, maddə 591; 2017, № 10, maddə 1773; 2018, № 12 (I kitab), maddələr 2468, 2527; 2019, № 1, maddə 33, № 5, maddə 792) aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 43.7-1-ci maddə əlavə edilsin:

"43.7-1. Təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunması barədə ipoteka saxlayan və hərracın təşkilatçısı 30 təqvim günü ərzində protokol imzalayırlar; bu protokol müqavilə qüvvəsinə malikdir.";

3.2. 46.1-ci maddədə ikinci halda "alqı-satqı müqaviləsi notariat qaydasında təsdiq olunanadək" sözlərindən sonra "və ya təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunması barədə protokol imzalananadək" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 may 2021-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol"un təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2021-ci il fevralın 19-da Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2021-ci il*

# Goranboy rayonunun Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tap Qaraqoyunlu avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Otuz bir min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tap Qaraqoyunlu avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.7-ci yarımbəndində göstərilmiş 13,5 milyon (on üç milyon beş yüz min) manat Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyun 2021-ci il*

# "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 8 may tarixli 1336 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın 28-ci hissəsinin sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda 29 - 31-ci hissələr əlavə edilsin:

"29. Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyi

30. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi

31. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyun 2021-ci il*

# "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında", "Arıçılıq haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Təhsil haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 54; 2008, № 7, maddə 602; 2016, № 4, maddə 648; 2020, № 7, maddə 828) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.2-ci maddədən "qeydiyyatı və" sözləri çıxarılsın;

1.2. 5.1-ci və 7.4-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"5.1. Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin uçotunun aparılmasını təmin etmək, şəkərli diabetlə xəstələnmə halları, ağırlaşma, əlilliyin, o cümlədən 18 yaşınadək uşaqların sağlamlıq imkanları məhdudluğunun müəyyən edilməsi və ölüm halları, müalicə-profilaktika tədbirlərinin səmərəliliyi haqqında sistematik və düzgün məlumat almaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən registr yaradılır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) həmin registrə çıxışı təmin edilir.";

"7.4. Şəkərli diabet xəstəliyinə tutulmuş uşaq və gənclərə təhsil aldıqları müəssisələrdə tibb mütəxəssisləri və müəllimlər vasitəsilə xüsusi nəzarət təşkil edilir, səhhətlərində hər hansı dəyişiklik baş verdikdə dərhal tibbi yardım göstərilir.".

**Maddə 2.** "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 562; 2007, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2020, № 7, maddə 829) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6-cı maddə üzrə:

2.1.1. 6.1-ci maddədə "Səhiyyə orqanları" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

2.1.2. 6.2-ci maddədə "səhiyyə orqanları" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

2.1.3. 6.3-cü maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

2.2. 13-cü maddənin birinci cümləsində "orqanına" sözü "orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri ilə və ikinci cümləsində "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

2.3. 14.4-cü maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 681; 2006, № 2, maddə 75; 2007, № 1, maddə 5; 2016, № 2 (I kitab), maddə 195, № 12, maddə 2030; 2019, № 11, maddə 1684) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci maddədən "səhiyyə," sözü çıxarılsın və həmin maddəyə "daxili işlər orqanları," sözlərindən sonra "tibb müəssisələri," sözləri əlavə edilsin;

3.2. 16-cı maddə üzrə:

3.2.1. adında "Səhiyyə orqanları və səhiyyə" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və tibb" sözləri ilə əvəz edilsin;

3.2.2. 16.1-ci maddədə "Səhiyyə orqanları" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

3.2.3. 16.2-ci maddədə "Səhiyyə orqanları" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə və "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;

3.2.4. 16.3-cü maddədə "səhiyyə orqanlarının və səhiyyə" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) və tibb" sözləri ilə əvəz edilsin;

3.3. 20.6.4-cü maddənin ikinci cümləsində və 21.0.5-ci maddədə "səhiyyə" sözü "dövlət tibb" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 444, № 12, maddə 1210; 2019, № 11, maddə 1684) 3.0.12-ci maddəsində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Arıçılıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 208; 2011, № 2, maddə 71; 2019, № 8, maddə 1384) 15.2-ci maddəsində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

**Maddə 6.** "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 710; 2011, № 12, maddə 1088; 2018, № 7 (I kitab), maddə 1382; 2019, № 3, maddə 379; 2020, № 6, maddə 670, № 7, maddə 830) 12.2-ci maddəsinə "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin.

**Maddə 7.** "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881; 2020, № 5, maddə 508, № 6, maddələr 662, 669, № 7, maddələr 824, 830, № 11, maddələr 1329, 1335, № 12 (I kitab), maddə 1420; 2021, № 2, maddə 108) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 28.3-cü maddəyə "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri və "xidmət" sözündən sonra "həmin təhsil müəssisələri tərəfindən" sözləri əlavə edilsin;

7.2. 29.0.40-cı maddə aşağıdakı redaksiyada verilsin:

"29.0.40. dövlət təhsil müəssisəsində pulsuz tibbi xidmətin təşkili qaydasını müəyyənləşdirmək;";

7.3. 31.0.2-ci maddədə ", səhiyyə və digər orqanların" sözləri "və digər orqanların, eləcə də tibb müəssisələrinin" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613; 2010, № 6, maddə 489; 2011, № 2, maddə 71; 2013, № 11, maddə 1281; 2014, № 4, maddə 340; 2015, № 5, maddə 507; 2016, № 3, maddə 420, № 12, maddə 2021; 2017, № 1, maddə 11, № 7, maddə 1272; 2018, № 7 (I kitab), maddələr 1393, 1412, № 10, maddə 1966; 2019, № 5, maddə 797; 2020, № 6, maddə 670, № 7, maddə 830; 2021, № 2, maddə 109) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 13.1-ci maddədə "orqanları" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

8.2. 18.0-cı maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

8.3. 22.3-cü maddədə "orqanları həyata keçirirlər" sözləri "orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir" sözləri ilə əvəz edilsin;

8.4. 23.2.1-ci və 30.3-cü maddələrdə "orqanları" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 376; 2011, № 7, maddə 594; 2014, № 6, maddə 609; 2016, № 1, maddə 17; 2019, № 1, maddə 34; 2020, № 12 (I kitab), maddə 1423) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 10.2.7-ci və 18.4.4-cü maddələrdə "orqanlarına" sözü "orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri ilə əvəz edilsin;

9.2. 19.5-ci maddədə "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

**Maddə 10.** "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 481; 2014, № 11, maddə 1350; 2016, № 4, maddə 651; 2018, № 5, maddə 892; 2020, № 7, maddə 831) 21.1-ci maddəsində "orqanları" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə və "edirlər" sözü "edir" sözü ilə əvəz edilsin.

**Maddə 11.** "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 836; 2017, № 8, maddə 1512; 2019, № 11, maddə 1685) 6.1.2-ci və 6.2-ci maddələrində "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 may 2021-ci il*



# Qarabağda zəfər nəğmələri səslənir...

44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun nail olduğu zəfər sevinci möhtəşəmdir. Bu qələbə Azərbaycan xalqının böyük qürurudur. Artıq Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlarımızın həsrəti, nisgili bitib. Amma yaraları hələ sağalmayıb. Otuz ilə yaxın davam edən işğal müddətində erməni qəsbkarları o yurd yerlərimizdə daşı daş üstündə qoymayıblar. Azərbaycan xalqına məxsus olan tarixi, milli-mədəni, dini abidələrimizi, yaşayış evlərini, inzibati binaları talayıb, yerləyeksan ediblər. Çünki işğalçı ermənilər on illər boyu buna əmin idilər ki, Azəbaycan dövləti, Azərbaycan xalqı öz tarixi ərazilərində düşmənlərin at oynatmalarına izn verməyəcək. Ona görə yurdlarımızı talan etdilər, odlara qaladılar.

### İşğalçı ermənilərin qəddarlığının şahidi olan yurd yerlərimiz...

Vətən müharibəsindən sonra yalnız Azərbaycan xalqı deyil, bütün dünya erməni vəhşiliyinin bir daha şahidi olur. Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatlarla çıxış edərkən bildirdi: "Əziz qardaşımla bu gün Füzuli şəhərində görüşərək, onu orada qarşılayaraq Füzulinin dağılmış mənzərəsini göstərdim, Füzuli şəhəri yoxdur". Dövlətimizin başçısının vurğuladığı kimi, Füzulidə bir dənə də salamat bina yoxdur. Prezident İlham Əliyev vurğulayıb ki, mənfur düşmən bütün binalarımızı yerləbir edib. O deyib: "Ağdam da belə vəziyyətdədir. Bizim tarixi abidələrimizi dağıdıb, söküb və talan ediblər. Şuşa şəhəri görün nə gündədir. Şuşa tarixi şəhərdir və 28 il işğal dövründə burada bir dənə də bina tikilməmişdir. Mən əziz qardaşıma bax, bu binanı göstərdim, Şuşa valiliyinin binası, mənim rəhmətlik atamın dövründə tikilmişdir. Şuşadakı binalar həm onun dövründə, həm də Pənahəli xanın, İbrahimxəlil xanın dövründə tikilmişdir. Mənfur düşmən bir daşı daş üstə qoymamışdır. İndi Şuşanın dağılmış yerlərini siz görürsünüz, hələ biz bura əl gəzdirmişik. İlk dəfə mən bu ilin əvvəlində buraya gələndə şəhər tamamilə dağılmış vəziyyətdə idi".

Qarabağın ürəyi, Azərbaycanın incisi qədim Şuşa şəhəri də işğalçı ermənilərin qəddarlığının, vəhşiliyinin şahidi olub. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, 1752-ci ildə Pənahəli xan bu şəhərin təməlini qoydu, ondan sonra bütün dövrlərdə Şuşada yaşayan əhalinin 98 faizi azərbaycanlılar idi və 30 il işğal altında qalmasına baxmayaraq, Şuşa əyilmədi, öz milli ruhunu qoruya bildi, ləyaqətini qoruya bildi və bizi gözləyirdi.

### Qarabağ əziz qonaqlarını qarşılayır...

Azərbaycan xalqı bir yumruq kimi birləşərək illərdir yolumuzu gözləyən, Vətənin bir parçası olan şəhərlərimizin, kəndlərimizin intizarına son qoyub. İndi o yerlərdə zəfər nəğməsi çalınır. Artıq Azərbaycan Prezidenti İlham Əliyev dar günümüzdə də, sevincli vaxtlarımızda da daim yanımızda olan dost, qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanı məhz işğaldan azad etdiyimiz torpaqlarımızda qarşılayır.

Doğrudur, Vətənimizə gələn əziz qonaqlarımız da gördükləri mənzərələrdən bizim kimi pərişan olurlar. Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin heykəllərini ziyaraət edərkən də eyni hisslər yaşandı. 1992-ci il mayın 8-də, Şuşanın işğalı zamanı şuşalıların evləri, qədim, tarixi-mədəni abidələri erməni qəsbkarlarının qurbanına, özləri isə doğma yurdundan ayrılıb məcburi köçkünə çevriləndə işğalçıların bununla da nifrəti, kini bitməmişdi. Beynəlxalq Haaqa Konvensiyasının tələblərinə məhəl qoymayan ermənilər hətta heykəlləri belə atəşə tutmaqdan çəkinməmişdilər. O vaxt dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin, məşhur azərbaycanlı vokalist Bülbülün və şairə Xurşidbanu Natəvanın muzeylərini də qarət edib viranə qoydular. Erməni işğalçıları Azərbaycan musiqisinin beşiyi Şuşanı işğal etdikdən sonra Üzeyir bəy Hacıbəylinin, Bülbülün və Xurşidbanu Natəvanın büstlərini güllələdilər.

İşğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırıldı. Qeyd olundu ki, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər ermənilərdən alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qoyulub.

### Xalqımızın mübarizlik simvolu

Azərbaycanın bu tarixi şəhəri yenə doğma musiqinin, ana dilində səslənən mahnıların sədalarına büründü. Şuşada Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiya izlədilər.

Musiqili kompozisiyada Azərbaycan Atçılıq Federasiyasının təqdim etdiyi Qarabağ atlarının möhtəşəm çıxışının müşayiətilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının, Azərbaycan Dövlət Rəqs ansamblının, "Mirvari" rəqs ansamblının və Bakı Xoreoqrafiya Akademiyasının tələbələrinin rəqsləri, "Natiq" ritm qrupunun ifaları təqdim edildi. Proqramda Azərbaycanın və Türkiyənin xalq və bəstəkar mahnıları səsləndi.

"Xarıbülbül" kompozisiyasında Qarabağın rəmzi sayılan iki xarıbülbül gülü birləşərək Azərbaycan ilə Türkiyə arasındakı əbədi dostluq və qardaşlıq münasibətlərinin təcəssümü oldu.

Tədbir zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ən qədim at cinslərindən olan "Zəfər" adlı Qarabağ atı hədiyyə edilməsinin mənəvi anlamı böyükdür. Xalqımızın qədim adət-ənənələrinə görə, at şərəf rəmzi sayılır. "At igidin yaraşığıdır", deyib ulularımız. At haqq-ədalət uğrunda savaşan bir xalqın mübarizlik simvoludur.

Mübarizəmiz isə davam edir. Azərbaycanın və Türkiyənin birliyi, dostluğu, qardaşlığı böyük zəfərlərin müjdəsidir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



◆ **Qarabağ söhbətləri**

# İlham Əliyevin yaradacağı Ağdam daha möhtəşəm, daha qüdrətli olacaq

*Əvvəli 1-ci səh.*

### 30 yaşımda tərk etdim, 58 yaşımda qayıtdım

- Dədə-baba yurdunu işğaldan azad edilmiş görmək, gedib orda yenidən təməlqoymanın şahidi olmaq xoşbəxtliyi sözlə ifadə ediləsi deyil.

Ağdamla məni bütöv bir nəsil bağı bağlayır, uşaqlığım, əslim-köküm... Atam sənətkar idi. Orta məktəbi yaxşı oxumuşam, həmişə şəklim şərəf lövhəsində olub. Dayılarım, xalalarım hamısı oxumuş, ziyalı adamlar idi, onların mühitində böyümüşəm. Dayım Şahin Quliyev uzun müddət mətbuatda çalışıb.

Ağdam Qarabağın mədəniyyət, ticarət mərkəzidir. Mayın 28-də Ağdamda təməlqoyma mərasimində iştirak etdim. Təhsil aldığım 1 nömrəli məktəbin təməli qoyuldu. Onu da deyim ki, o məktəb Azərbaycana çox böyük ziyalılar bəxş edib. Xudu Məmmədov, Rafiq Əliyev bu məktəbin məzunlarıdır. Təməlqoyma mərasimində Ağdam Arxitektura idarəsinin əməkdaşı dedi ki, Ağdam dünyanın azsaylı şəhərlərindəndir ki, Romada olduğu kimi, bütün küçələr planlı şəkildə paralel salınmışdı. Doğrudan da elə idi.

Ağdamda yaşayanda o qədər fikir verməmişdim, bu, sən demə, çox gözəl imiş. Ətrafına sarılan dağlar necə əzəmətlidir. Hamısını qarış-qarış gəzmişəm, amma bilməmişəm, duymamışam, bəlkə, uşaq olduğum üçün anlaya bilməmişəm. İndi şəhər mənə çox maraqlı gəldi. Həsrət bunu bizə anlatdı. Ağdamdan çıxanda 30 yaşım vardı, 58 yaşımda qayıtdım ora. Elə bil yenidən həyata gəldim.

### Ağdam Çörək Muzeyi unikal məkan idi

- Uzun illər Ağdam Çörək Muzeyində işləmişəm. Çörəyin süfrəyə gəlib çıxmasına qədərki bütün emal prosesi muzeydə nümayiş olunurdu. Xış, vəl, kotan, yabalar, bir sözlə, çörək hazırlamaq üçün bütün əmək alətlərinin hamısı vardı bu muzeydə. Yeri qazıb, buğdanı ora səpməkdən tutmuş çörəyin süfrəyə nəyin içində gətirilməsinə qədər bütün proseslər nümayiş etdirilirdi.

Muzeydə dünyanın, o cümlədən keçmiş SSRİ-nın bütün ölkələrinin çörək nümunələri sərgilənirdi. Muzeydə təndir üçün yer ayrılmışdı. Təndirdən istifadə olunurdu, istifadəyə yararlı eksponat idi. Muzeyi ziyarətə gələn xarici ölkə vətəndaşları çörəyin təndirdə, sac üstündə bişirilmə qaydası ilə yerində tanış olur və həmin təndir, yuxa çörəklərindən dadırdılar. Xüsusi işçilərimiz vardı, onların fəaliyyəti sac asıb yuxa salmaq, təndir çörəyi bişirməkdən ibarət olardı. Ağdama gələn qonaq hökmən o muzeyə gələrdi, çünki çox məşhur idi. Muzey yaradılanda bu qədər məşhur və geniş aspektli olacağı bəlkə də heç onu yaradanların ağıllarına da gəlməzdi. Zaman keçdikcə muzey fəaliyyətini genişləndirib ona olan marağı daha da artırdı.

1983-cü ildə fəaliyyətsiz qalan dəyirman əsasında yaradılmışdı Çörək Muzeyi. Belə bir unikal hadisə ətraf rayonlara necə səs-küy saldısa, eksponatları yığmaqda heç bir çətinlik yaranmadı. Kimin evində xurcun, palaz, qədim vedrə, ləyən, teşt, ərsin, sərnic, səhəng, başqa mis əşyalar vardısa, gətirib verdi muzeyə. Ona görə də rəsmi qeydiyyatda 1500 eksponat vardı. Anbarda olan eksponatlar hələ araşdırılıb kitaba salınmamışdı. Qeyri-adi muzey idi. Binanın özünün qədim arxitekturası vardı. XIX əsrin ortalarında tikilmişdi. Uzun müddət, yüz ilə yaxın bu dəyirman Ağdamı və ətraf rayonları çörəklə təmin etmişdi. Ona görə də ən gözəl eksponat elə dəyirmanın özü idi. Bu od dəyirmanı idi, qurğuları Rusiyadan gətirilmişdi, həm də mazutla işləyirdi. Gündə 8-10 ton dən üyütmək qabiliyyəti vardı ki, o dövr üçün çox böyük rəqəmdir.

### Dəyirman öz bildiyin edər...

- Dəyirman ən çətin günlərdə əhalini aclıqdan qurtarmışdı. İkinci Dünya müharibəsində insanların ən çox köməyinə çatan yer olub. Düzdür, ətraf kəndlərdə su dəyirmanları vardı. Məsələn, Seyidli kəndində dəyirman işləyirdi. Ağdamın özündəki dəyirmanın gücü çox olduğu üçün əsas işi o görürdü. Yük od dəyirmanın boynuna düşürdü. Dəyirmançılar isə çox hörmətli adamlar olub o dövrdə. Çörəyə təlabat çoxdu, onun da əsası dəyirmanda hazırlanırdı, yəni buğda üyüdülüb un halına salınırdı. Adamlar günlərlə dəyirmanda növbə gözləyirdilər. Ona görə də çörəyin hər loğmasının qiyməti bilinirdi. İndiyə qədər uşaqlığımda yediyim o çörəyin ətri burnumdadır. Kənddə nənəmin təndirdə bişirdiyi çörəyin ətri xeyli ətrafa yayılırdı. Sonralar çox axtardıq o ətri, tapa bilmədik. Anam 1991-ci ildə rəhmətə getdi. Onun əli ilə bişən çörəyin dadını daha tapmıram.

Gün ərzində kənardan, daxildən o qədər qonaqlar qəbul edib, yola salırdıq. Çox qonaq-qaralı yer idi Ağdam, xüsusən də Çörək Muzeyi.

Muzey kimi fəaliyyət göstərdiyi vaxtlarda dəyirmanı da işlətdik. Dedik qoy, muzeyin baş eksponatı elə dəyirmanın özü olsun və işləsin. Ağdamda böyük Dəzgahqayırma Zavodu vardı. Ordan dostları dəvət etdim, gəldilər, baxdılar, dedilər bərpa etmək mümkündür. Bacarıqlı mütəxəssislər idilər. Rusiyadan gətirilmiş həmin tökmə hissələri təmir edə bildilər, biz də düyməsini sıxıb dəyirman işlətdik.

Qarabağın ağır günlərində yenə əhalinin köməyinə çatdı bu dəyirman. Bir dəfə muzeydə işçi gəlib dedi ki, müəllim, Cəbrayıldan bir maşın buğda gətiriblər, orda vəziyyət ağırdır, bunu üyütmək lazımdır. Artıq müharibə gedirdi, hamımız eyni vəziyyətdəydik. Dedim borcumuzdur, üyüdərik. Dəni üyütdük, yüklədik maşına, getdilər. Dəyirmanı Aslan kişi işlədirdi, sənətinin ustası idi. Atamla bir yerdə orta məktəbdə oxumuşdular, müharibə veteranı idi. Bir işi yox idi, xəstə düşmüşdü. Görəndə ki, dəyirmanı bərpa edilir, ona ikinci nəfəs gəldi, işə başladı. Təəssüflər olsun ki, 1992-ci ildə dəyirmanı raketlə vurdular, ondan əvvəl bir dəfə də may ayında muzeyə raket düşmüşdü, amma partlamamışdı. Hərbçiləri çağırdım, zərərsizləşdirdilər.

İkinci dəfə avqustun 12-də Əsgəran tərəfdən məhz şəhərin mərkəzini vurdular. Muzey də mərkəzdə yerləşdiyindən raket onu da tutdu, söndürmək mümkün olmadı, yandı. Binanın əsas hissələri taxtadan idi, köhnə, qurumuş taxta da yanğına həssasdır, odur ki, kül oldu hamısı. O gün 1992-ci ilin avqust ayının 12-si idi.

### "Xarıbülbül" festivalı İmarətdə başlayıb, Şuşada tamamlanardı

- 1988-1990-cı illərdə Qarabağda, Ağdamda "Xarıbülbül" festivalı keçirilirdi. Əvvəl Ağdamda olurdu, yekun konserti Cıdır düzündə təşkil edilirdi. Birinci il SSRİ-dən qonaqlar oldu, ikinci, üçüncü dəfə isə xarici ölkələrdən də qonaqlar gəldi. Qonaqların hamısı da Çörək Muzeyində olub çay içirdilər, motal pendiri ilə təndir çörəyinin, şorla yuxanın dadına baxırdılar.

Yəni festival Ağdamın İmarətində başlayıb, Şuşanın Cıdır düzündə yekunlaşırdı. Ümumiyyətlə, İmarət təkcə Qarabağ üçün yox, bütün Azərbaycan üçün önəmli yerdir. Qarabağın bünövrəsini qoyan Qarabağ xanlarının hamısı İmarətdə uyuyur. Şuşada yaşayırdılar, amma Ağdamda dəfn edilirdilər. İmarətdə xanlıq dövründən qalma çınarlar vardı. Bu məkan tarixin şahidləri idi. O vaxt müharibə gedəndə "Ağdam" qəzetinə bir yazı yazmışdım, qeyd edirdim ki, kaş, bu çınarlardan biri olaydım, məni yerimdən heç bir qüvvə tərpədə bilməyəydi. Bunlar kökləri ilə bizdən daha çox torpağa bağlıydılar. Hamısını kəsiblər.



Qarabağın cins atlarının şöhrəti bütün dünyaya yayılıb. O qədim kişilər, xan babalarımız yetişdirmişdilər onları. Bu gün elm, texnika nə qədər inkişaf edib, amma elə bir cins yetişdirmək olmur. Atçılıq zavodu yaradılmışdı, o da didərgin düşdü. Qarabağ atları yenə öz yurdlarına qayıdacaqlar. İngiltərə kraliçasına bağışlanan "Şimşək" adlı atı İngiltərədə hər axşam çıxardıb London küçələrində gəzdirirmişlər, camaat yığışıb atın gözəlliyinə baxırmış. Təəssüf ki, o mühitdə yaşaya bilməmiş, atın ürəyi partlamışdı. At belə bizdən vəfalı çıxdı, Qarabağsız yaşamadı, biz 30 ilə yaxın Qarabağsız necə yaşadıq, bilmirəm...

### Ağdam bazarı adla deyilirdi

- Ağdam özünəməxsus rayondur. O vaxtlar Ağdamda olan gözəl evlər başqa rayonlarda yox idi. Bəlkə də var idi, amma Ağdamdakı kimi deyildi. Ağdamın küçələri, xiyabanları, parkları, havası, suyu, torpağı bir başqa aləm idi. Çox yerlərdə olmuşam, amma Ağdam kimi şəhər görməmişəm. Süfrə açmaq mədəniyyəti, qonaqpərvərlik Azərbaycanda yüksək səviyyədədir, Ağdamda da gözəl idi.

Ağdam bazarı adla deyilirdi. Quş südü, can dərmanı vardı bu bazarda. Ən gözəl maşın ustaları Ağdamda idi. Usta Sərdar var, indi də yaşayır, Allah ömür versin, bütün respublika maşınının rəngini dəyişdirməyə onun yanına gəlirdi. Gözüylə baxıb istənilən rəngi alırdı. İndi o işi kompüter görür. Bazarda bir dəmirçixana vardı. Yanından keçəndə miskərlərin taqqıltısı, çəkiclərinin səsi adama musiqi kimi gəlirdi. Elə bil ki, xüsusi ritmlə səslənirdi, olduğu kimi qalıb qulaqlarımda.

Ağdam bazarına gələn boş qayıtmazdı. Oğlan evləndirən, qız köçürən, ev tikən, bağ salan-hamı bu bazada özünə lazım olanı tapardı.

### Kötəlinin suyu

- Ağdam məscidi Azərbaycanın ən gözəl memarlıq binalarından idi. Əvvəl bir minarəli olub, sonra Seyidli kəndindən bir imkanlı şəxs ikinci minarəni inşa etdirib. Sovet dövründə məscidlərin söküldüyü vaxtlarda Ağdam məscidi işləyirdi. Məhərrəmlikdə ayinlər yerinə yetirilirdi. Qarabağ müharibəsində orda nə qədər şəhid kəfənləndi, məzara verildi...

Xocalı faciəsinin şahidlərindəndir. Nə qədər insanı, yaralını, şəhidi yola salıb. Yerlə göy birləşmişdi o gün, dünyanın sonu idi. Ağdamda məscid çox idi. Ağdamın "Çay evi" də adla deyilərdi. Xudu Məmmədovun təşəbbüsü ilə inşa edilmişdi. Gözəl bir məkan idi. Çin memarlığı üslubunda tikilmiş dördmərtəbəli bina idi. Mən Xudu Məmmədovu da şəhid hesab edirəm. O da Qarabağ yolunda şəhid oldu, çox böyük ziyalı idi. Ümumiyyətlə, bilmirəm, Kötəlinin suyundan idi, yoxsa nə idisə. Ağdam böyük ziyalılar və sənətkarlar yetişdirib. Kötəl çayı Qarqarın bir qoludur, Ağdam, Hacılı, Seyidlidən keçirdi. Arif Babayev deyir ki, o sudan içən hər kəsin məlahətli səsi olurdu. Bağlarımızı da o su ilə suvarırdıq. Dağlardan gələn bu su həm içməli idi, həm də suvarmada istifadə edilirdi. Təbii ki, hava, su ilə bərabər genetik faktor da var.

### Ağdam haqqında film də yandı

- Ağdam haqqında 15 dəqiqəlik sənədli film çəkmişdim, dövlət televiziyasında montaj etdirmişdim. O qədər heyifsilənirəm ki, Çörək Muzeyi ilə birlikdə o lent də yandı. İndi keçmiş Ağdam haqqında ən böyük tarix o film olardı. Şahbulaq tərəfdə dağın başında daş karxanasından başlayıb düşmüşdüm İmarətə, Ağdamı gəzib gəlmişdim Çörək Muzeyinə. Nə bilim belə olacaq, bir neçə nüsxə çıxardardım. Bütün Ağdam vardı o filmdə.

Ağlımıza gəlməzdi ki, çörəyimizi yeyənlər bu cür xəyanət edər bizə...

Köhnə Ağdama nə qədər nostalgiyamız, həsrətimiz olsa da, mən yeni Ağdamı gözləyirəm. Dövlət o yurdları yenidən quracaq. Dağıdılmış Ağdamın mərkəzi açıq səma altında canlı muzey olacaq. Dram teatrının qarşısında Fərhadın heykəli bərpa ediləcək. Müasir texnologiya ilə Ağdamın keçmişi də, dağıdılmış vaxtı da nümayiş olunacaq. Mən də istəyərdim ki, köhnə, uşaqlığımın Ağdamı olsun, amma mümkün deyil.

Kinoteatrın arxasında Ağdamın bulvarı var idi, hər gün işdən sonra babam məni orda gəzdirərdi. Bulvarda elə bitkilər, güllər vardı ki, sanki cənnətin özü idi. Suyundan içdikcə doymaq olmurdu. Daha o olmayacaq, amma ondan gözəli olacağına inanıram. Meşə salınacaq şəhərin kənarında. Çox xoşuma gəldi, dağdağan ağacları əkiləcək. Möcüzəli ağacdır. Prezident ilk iki dağdağan ağacını öz əlləri ilə əkdi. O ağacın yurdudur Ağdam. Hər evin xarabalığında bir dağdağan ağacı qalxıb. Kimsə yaxşı düşünüb, görüb ki, dağdağan ağacları özü bitir, deyib ki, bu ağacı burda artırmaq lazımdır.

Ağdamda təməlqoyma mərasimdə çox böyük fəxarət hissi yaşadım. Xalqımızla, Prezidentimizlə fəxr etdim. Qarşı-qarşıya gəlməyə qalsaq, biz erməniləri tapdayıb keçərdik. Burda böyük səbir və siyasət lazım idi, onu da Prezidentimiz bacardı. Şükürlər olsun, 28 mayda yenidən doğuldum, elə bil 28 il yaşamamışam.

Yeni Ağdamın təməlini qoyanlardan biri oldum. Həm siyasətdə, həm mədəniyyətdə əsgərəm. Hansı qismdə olursa olsun, təki Ağdamın quruculuğunda iştirak edim.

*...28 il sonra ağappaq lopa buludlu səmanın ənginliklərində quş dəstəsi göründü. Onlar doğma yurda qayıtmış sənətkarların - miskərlərin dəmirlərə dəyən çəkiclərindən çıxan musiqinin ahəngi ilə qanad çalır, gah aşağı enir, gah da ənginliklərə qalxırlar... Obanı isti təndir çörəyinin ətri bürüyüb. Haqqın nahaqqa qalib gəldiyi torpaqlarda həyat ritmi beləcə davam edir.*

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Yaşasaydı, 23 yaşı olacaqdı

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan, əslən Ağdamdan olsa da, Mingəçevirdə doğulub boya-başa çatan Həsənov Əzim Fikrət oğlu yaşasaydı, 23 yaşı olacaqdı.



Bu münasibətlə keçirilən anım mərasimində ehtiyatda olan polkovnik-leytenant Seymur Hidayətov çıxış edərək şəhidin ailəsinə başsağlığı vermiş, ailəsinə və qohumlarına səbir diləmişdir. Daha sonra şəhidin oxuduğu məktəbin direktoru Ülviyyə Fətəliyeva çıxış edərək Əzimin keçdiyi qısa və mənalı həyat yolundan söz açmışdır.

Ailənin ilk və yeganə oğlu olan Əzim orta məktəbi 2015-ci ildə "əla" qiymətlərlə bitirib. Elə həmin il yüksək balla Azərbaycan Dillər Universitetinə daxil olub, universiteti bitirdikdən sonra hərbi xidmətə yollanıb. Sentyabr ayının 27-də başlayan Vətən müharibəsində kəşfiyyatçı olub. Cəbrayıl, Hadrut, Horadiz, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib. Qızğın döyüşlər zamanı bir neçə dəfə əsgər yoldaşlarını mühasirədən çıxarıb. Sonuncu dəfə Füzulinin Seyidəhmədli kəndi yaxınlığındakı döyüşlərdə yaralı əsgər yoldaşını xilas edərkən düşmən gülləsinə tuş gəlib. Prezidentin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasna görə" medalları ilə təltif edilib.

***Esmira HİDAYƏTOVA,***
***Mingəçevir şəhər sakini***

# Masazırda şəhidlərin adına abidə-bulaq kompleksi tikilib






Masazır kəndində Vətən müharibəsində şəhid olan Zaur Zahir oğlu Dövlətov və Elxan Maarif oğlu Hüseynovun xatirəsini əbədiləşdirmək məqsədi ilə abidə-bulaq kompleksi inşa olunub.

Şəhid ailələrinin, kənd camaatının və rayon ictimaiyyətinin iştirakı ilə bulaq kompleksi istifadəyə verilib.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova çıxış edərək Azərbaycan igidlərinin öz müqəddəs borclarını yerinə yetirərkən şəhidlik zirvəsinə yüksəldiyini vurğulayıb. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, əsgərlərimizin döyüş əzmi sayəsində Qarabağın işğaldan azad olunduğunu deyən İ.Gülməmmədova bildirib ki, istifadəyə verilən abidə-bulaq kompleksi öz canını vətən yolunda əsirgəməyən iki şəhidimizin əziz xatirəsinə ucaldılıb.

Sonra şəhidlərə həsr olunan şeirlər səsləndirilib. Gənclərə örnək olan Z.Dövlətov və E.Hüseynovun yaxınları xatirələrini danışıblar. Sonda şəhidlərimizin ruhuna dualar oxunub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Tərtərdə şəhidin xatirəsinə abidə inşa edilib

Tərtər rayonunun Seydimli kəndində şəhid Abbasov Aysənan Əsgər oğlunun xatirəsinə abidə inşa edilmişdir.



Xatirə abidəsinin açılışına həsr edilən tədbirdə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev, hüquq mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, müharibə veteranları, kənd sakinləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə iştirakçılar kənddə Birinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış abidə önünə gül-çiçək dəstələri düzüb, Vətən uğrunda şəhid olan oğulların xatirəsini ehtiramla yad ediblər. Sonra abidənin açılışı olub.

Açılışda çıxış edən M.Məmmədov ötən il sentyabrın 27-də başlanan və tarixə 44 günlük savaş kimi düşən Vətən müharibəsindən, Azərbaycan Ordusunun qəhrəmanlığından, qazandığı şanlı Qələbədən, şəhidlərin gənclərə nümunə olan qısa, lakin şərəfli ömür yolundan danışıb. Vətən müharibəsində şəhidlərin qanının yerdə qalmadığı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edildiyini, böyük Qələbənin tarixi əhəmiyyətini qeyd edib. Bildirib ki, Vətən müharibəsində Tərtər rayonuna 16 min 277 top, tank, qrad mərmisi, 21 qadağan olunmuş raket atılıb. Ancaq tərtərlilər bir gün də öz doğma yurdlarını və ev-eşiklərini tərk etməyib, evləri dağılsa da, şəhidlər verilsə də, ön cəbhədə olduğu kimi, arxa cəbhədə də qəhrəmanlıq, şücaət göstəriblər.

S.Alıyev isə Vətən müharibəsində Prezident İlham Əliyevin "Dəmir yumruğ"u ətrafında xalqımızın sıx birləşdiyini, şəhidlərin qanının yerdə qalmadığını bildirib, böyük Qələbənin tarixi əhəmiyyətindən danışıb.

Tədbirdən sonra iştirakçılar şəhidin boya-başa çatdığı ata evinə gəlib, ailə üzvləri ilə görüşüb, qayğıları ilə maraqlanıblar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Şəhid kapitan unudulmur

Sumqayıt şəhərinin 10-cu mikrorayonundakı 50 nömrəli yaşayış binasına şəhid Nadir Nurəddin oğlu Mustafayevin barelyefi vurulmuşdur.




Ölkəmizin hər yerində olduğu kimi, Sumqayıtda da Vətən uğrunda canından keçən şəhidlərimiz ehtiramla yad edilir. Onlardan biri I Qarabağ müharibəsinin şəhidi, kapitan Nadir Mustafayevdir. O, 1967-ci ildə anadan olmuşdur. Valideynləri əslən Zərdab rayonundan olsalar da, Nadir Sumqayıtda böyüyüb boya-başa çatmış, şəhərdəki 24 nömrəli orta məktəbi bitirmişdir. O, döyüşlərdə peşəkar hərbçi kimi cəsarətlə vuruşmuş, 36 yaşında şəhidlik zirvəsinə yüksəlmişdir.

Yaşadığı evə barelyefin vurulması şəhid kapitanın xatirəsinə bəslənən ehtiramın nümunəsidir. Bu xeyirxah iş 50 nömrəli binanın sakinləri, o cümlədən keçmiş hərbçi Yusif Məmmədovun təşəbbüsü və kiçik sahibkar Mehdiqulu Məmmədovun sponsorluğu ilə ərsəyə gəlmişdir.

***"Azərbaycan"***

# Dövlət-din münasibətləri davamlı olaraq təkmilləşir

İyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yaradılmasının 20 illiyi münasibəti ilə "Azərbaycan Respublikasında dövlət-din münasibətləri: 20 illik zaman kəsiyində" mövzusunda videokonfrans keçirilib.






Videokonfransı giriş sözü ilə açan DQİDK-nın sədri Mübariz Qurbanlı ölkəmizdə yüksək səviyyədə tənzimlənən dövlət-din münasibətlərinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğuna diqqət çəkərək məhz Ümummilli Liderin fəaliyyəti nəticəsində o illərdə sağlam zəmində dövlət-din münasibətləri qurulduğunu, milli-mənəvi dəyərlərə münasibətin kökündən dəyişdiyini, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığının bərqərar olduğunu bildirib. Qeyd edib ki, Ulu Öndərimizin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində böyük və tarixi xidmətlərindən biri də 2001-ci il iyunun 21-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasıdır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət, Prezident İlham Əliyevin onu uğurla davam etdirməsi və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin, zəngin tolerantlıq ənənələrimizin ölkədə və beynəlxalq aləmdə təbliği istiqamətində ardıcıl fəaliyyəti Dövlət Komitəsinin qarşısına qoyulmuş məqsədlərə çatmasına əlverişli zəmin yaradır.

Dövlət Komitəsinin öhdəsinə düşən vəzifələr ötən 20 il ərzində yüksək səviyyədə həyata keçirilib. Ötən müddətdə din sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dini etiqad azadlığı prinsiplərinin qorunması, dövlət-din münasibətlərinin qanunvericilik əsasında tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi və dini icmalar arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər reallaşdırılıb. Maarifləndirmə işinin Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri olduğunu bildirən M.Qurbanlı bu müddət ərzində komitənin fəaliyyətini təkcə ölkə daxili ilə məhdudlaşdırmadığını, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də işlərini davam etdirdiyini vurğulayıb.

Çıxışında həmçinin böyük Qələbəmizlə nəticələnən 44 günlük Vətən müharibəsinə toxunan komitə sədri vurğulayıb ki, Azərbaycanın Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin düşmən üzərindəki böyük Zəfəri ölkə tarixinin ən şərəfli səhifələrindəndir. Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalarla, xüsusilə Qafqaz Müsəlmanları İdarəsi ilə sıx əməkdaşlıq şəraitində çalışan Dövlət Komitəsi Vətən müharibəsi zamanı erməni təbliğatının ifşasına yönələn çoxsaylı tədbirlərdə yaxından iştirak edib.

M.Qurbanlı vurğulayıb ki, Komitənin bir neçə əməkdaşı Vətən müharibəsində iştirak edib, digər əməkdaşlar isə bu dövrdə üzərlərinə düşən vəzifəni yüksək məsuliyyətlə yerinə yetirməyə çalışıblar.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin Multikulturalizm və dini məsələlər sektorunun müdiri Müzəffər Talıblı dövlətin din siyasətinin həyata keçirilməsində Dövlət Komitəsinin səmərəli fəaliyyətindən, ötən müddət ərzində işgüzar kollektivin formalaşmasının, ixtisaslı kadr siyasətinin gücləndirilməsinin önəmi barədə danışıb. Ötən ilin noyabrında Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm Zəfər tarixi yazaraq ərazi bütövlüyümüzü təmin edən Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirən M.Talıblı daxili və xarici siyasətimizdəki nailiyyətlərə diqqət çəkib. Vurğulayıb ki, bu tarixi proseslərdə milli-mənəvi dəyərlərimizin, multikultural ənənələrimizin də mühüm rolu olub.

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin birinci müavini, müfti Salman Musayev əvvəlcə QMİ-nin sədri Allahşükür Paşazadənin Dövlət Komitəsinə ünvanladığı təbrik məktubunu konfrans iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edib ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun icra olunması, dövrün tələblərinə uyğun əlavə və düzəlişlər edilməsi üçün təkliflər verilməsi, dövlətin din siyasətinin həyata keçirilməsi, din xadimləri ilə dövlət arasında əlaqələndirici rol oynaması baxımından komitənin fəaliyyəti təqdirəlayiqdir. Fəaliyyət göstərdiyi ötən dövr ərzində DQİDK xaricdən Azərbaycana yönələn təhdidlərin, zərərli dini fikirlərin təbliğatının qarşısının alınmasında, dini maarifləndirmə və təbliğat işləri apararaq radikal dini cərəyanların təsirlərinin neytrallaşdırılmasında mühüm rol oynayıb.

Milli Məclisin deputatı, İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin din sahəsində atdığı ən böyük addımlardan biri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması olub. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədəki dini durumda gərginlik müşahidə olunurdu, istər İslam, istər qeyri-İslam radikal dini qrupların fəaliyyəti ölkədəki dini duruma mənfi təsir göstərirdi. Məhz bu səbəblərdən din sahəsinə yeni yanaşmalar tələb olunurdu. MDB məkanında ilk dəfə Azərbaycanda Ulu Öndərin fərmanı ilə belə bir qurum yaradıldı və dini fəaliyyət sahəsində bir sıra islahatlar həyata keçirildi. Qısa müddət ərzində dini durumda sabitlik müşahidə edildi. Din sahəsində aparılan maarifləndirmə işləri, ölkə miqyasında keçirilən çoxsaylı tədbirlər öz bəhrəsini verir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov Dövlət Komitəsinin yaradılmasının 20 illiyi münasibətilə kollektivi təbrik edərək, komitənin genişspektrli fəaliyyətinə uğurlar arzulayıb. Rəhbərlik etdiyi qurumla Dövlət Komitəsinin birgə əməkdaşlığına toxunan Rəvan Həsənov ölkə daxili və xaricində iki qurum tərəfindən həyata keçirilən layihələrin önəmindən danışıb.

Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Melih Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi protoiyerey Elnur Əfəndiyev, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Azərbaycanda Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumunun təmsilçisi Yozef Marek, "Azərbaycan Bibliya Cəmiyyəti"nin xristian dini icmasının sədri Rasim Xəlilov Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, 44 günlük Vətən müharibəsinin qalib sərkərdəsi Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın dini sahəyə göstərdiyi diqqət və qayğı barədə danışıblar. Eyni zamanda ötən dövr örzində Dövlət Komitəsinin dini konfessiyalarla qarşılıqlı əməkdaşlığın inkişafı, dini qurumların fəaliyyətinin dəstəklənməsi istiqamətindəki uğurlu fəaliyyətinə, habelə dini icmaları narahat edən məsələlərin dərindən öyrənilməsi, dini durumdakı neqativ halların aradan qaldırılması məqsədilə həyata keçirilən kompleks tədbirlərə diqqət çəkiblər.

# Ağstafa taxılçıları istehsalı həm də məhsuldar toxumlar hesabına artırırlar

Ağstafada taxılçılığa maraq ildən-ilə artır. Keçən il 10288 hektar sahədə taxıl yetişdirən fermerlər hər hektardan 36,4 sentner buğda, 28,1 sentner arpa götürmüşlər. Bu nailiyyətdən ruhlanan təsərrüfat sahibləri cari ilin məhsulu üçün əkin sahələrini 2 min hektar genişləndirmişlər. Amma əsas məqsəd istehsalı məhsuldar toxumlar hesabına artırmaqdır.



Rayonda fəaliyyət göstərən böyük taxılçılıq təsərrüfatlarından birinə Aşağı Kəsəmən kənd sakini Adil Nəsibov rəhbərlik edir. Taxılçılıq sahəsində zəngin təcrübə qazanan fermer hər il yüksək reproduksiyalı buğda toxumu istehsal edərək fermerlərə satır. Rayonda taxılçılıqla məşğul olan əksər fermerlər demək olar ki, toxumu bu təsərrüfatdan alırlar və onun məhsuldarlığından razıdılrlar.

Adil Nəsibov bu ilin məhsulu üçün taxıl sahəsini artıraraq 200 hektara çatdırmışdır. Keçən il hər hektardan 40 sentner məhsul götürən fermer cari ildə bu rəqəmin daha çox olacağını söyləyir. Onu da qeyd edək ki, fermer taxılın səpilməsindən yığımınadək bütün işləri özünə məxsus texnika ilə həyata keçirir. Hətta toxumun çeşidlənməsi və tədarükü üçün lazımi avadanlıqları var. Məhsulu da özünün 2 kombaynı ilə biçir və birini də özü sürür. Təsərrüfatında biçin başa çatan kimi isə kombaynları kömək üçün digər təsərrüfatlara göndərəcək.

Hər il bu təsərrüfatdan toxum alan fermer Etibar Əsgərov deyir ki, Ağgöl kəndi ərazisində icarəyə götürdüyü 140 hektar sahənin 100 hektarında taxıl əkir və yüksək məhsuldarlığa nail olur. Bir neçə ildir ki, hər hektardan 37 sentner taxıl götürür.

Rayondakı böyük taxıl istehsalçısı olan təsərrüfatlardan biri də Ağstafa Aqrar Sənaye Kompleksidir. Təsərrüfat, əsasən, buğda istehsalı ilə məşğuldur. Keçən il hər hektardan 45 sentner taxıl götürən kollektiv bu ilin məhsulu üçün 1800 hektar sahədə taxıl yetişdirmişdir. Kollektiv cari ildə məhsuldarlığın daha yüksək olacağına əmindir.

Fermer Asif Allahverdiyev də taxıl sahələrini artırmışdır. O, icarəyə götürdüyü pay torpaqlarında məhsuldar taxıl sortları yetişdirməklə xeyli qazanc əldə edir. Dağ Kəsəmən kəndinin sakini Nəsib Qədiməliyev də taxılçılıqda zəngin təcrübə toplamışdır. Fermer cari ilin məhsulu üçün 100 hektar sahədə taxıl yetişdirib. Keçən il hər hektardan 36,5 sentner məhsul götürən təsərrüfat sahibi deyir ki, dilini yaxşı bilsən, taxılçılıq gəlirli sahədir: "Bunun üçün torpağın strukturunu bilmək, aqrotexniki tədbirləri vaxtında aparmaq lazımdır. Ən vacibi də odur ki, gərək bitkinin vegetasiya dövrünü diqqətdə saxlayasan, gübrəsini və suyunu vaxtında verəsən".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# SEDA proqramı çərçivəsində Astarada növbəti layihə icra edilib

SEDA "Azərbaycanda Seçilmiş ABŞ Hökuməti Yardım Proqramları" üzrə iki ölkə arasında imzalanan Anlaşma Memorandumu əsasında ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyə vəsaiti və Azərbaycan hökumətinin dəstəyi ilə icra olunan layihədir.

Bu günlər SEDA proqramı çərçivəsində Astara rayonunun Pensər kəndində Pensər icması ilə birlikdə körpələr evi-uşaq bağçasının 850 metrlik və Fətəlioba icması ilə birlikdə Siyakeş kəndindəki 1003 metrlik məktəb yolları asfaltlaşdırılmışdır.

Bununla bağlı keçirilən tədbirdə Astara Rayon İcra Hakimiyyəti başçısının müavini İlqar Malıyev, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin nümayəndəsi Pərviz Musayev, ABŞ səfirliyinin nümayəndəsi Laura Daniels, SEDA proqramının direktoru Cabir Əlizadə və İqtisadiyyat Nazirliyinin Lənkəran Regional bölməsinin nümayəndəsi Nənəbacı Muradova iştirak etmişlər.



***S.MƏMMƏDOV,***
***Astara rayonu***

# İran xalqı Prezidentini seçdi

## Ölkənin yeni iqtidarı bir sıra ciddi problemləri həll etməli olacaq

Ötən şənbə günü İran İslam Respublikasında sayca 13-cü prezident seçkiləri keçirilmişdir. Seçkilərin nəticələri artıq məlumdur. Ölkənin seçilmiş Prezidenti İbrahim Rəisi təbrikləri qəbul edir.



Rəsmi məlumata görə, səs vermək hüququ olan iranlıların 48,8 faizi, yəni 28,9 milyon nəfər seçkilərdə iştirak etmiş, onların 17,9 milyonu prezidentliyə namizəd, Ali Məhkəmənin sədri İbrahim Rəisini dəstəkləmişdir. Digər üç namizəd - Sistemin Məqsədəuyğunluğunun Qiymətləndirilməsi Şurasının katibi Möhsün Rzai 3,4 milyon səs, Mərkəzi Bankın keçmiş başçısı Əbdünnasir Himməti 2,4 milyon səs, parlament sədrinin müavini Əmir Hüseyn Qazizadə Haşimi təxminən 1 milyon səs toplamışdır.

İbrahim Rəisinin dövlət başçısı vəzifəsinə seçiləcəyi gözlənilən idi. Səsvermədən qabaq keçirilmiş rəy sorğuları göstərirdi ki, prezident kürsüsünə seçkilərdə inamlı qələbə qazanaraq məhz Rəisi əyləşəcək.

Xalqın belə bir seçim edəcəyi bir sıra səbəblərlə izah edilirdi. İlk növbədə, seçilmiş dövlət başçısı kənardan gəlmiş siyasətçi deyildi. O, uzun illər yüksək dövlət vəzifələri tutmuşdur. 2019-cu ildən bəri Ali Məhkəməyə rəhbərlik edən Rəisi bundan əvvəl baş prokurorun səlahiyyətlərini icra edirdi. O, dörd il əvvəl - 2017-ci ildə keçirilmiş seçkilərdə prezidentliyə namizəd kimi iştirak etmiş, amma mötədil islahatçı Həsən Ruhaniyə məğlub olmuşdur. O vaxt Ruhani 14 milyondan çox, Rəisi isə 10 milyondan çox səs toplamışdılar. Bu o mənaya gəlir ki, Rəisi dövlət rəhbərliyinə doğru məqsədyönlü şəkildə irəliləyirdi.

Digər tərəfdən, ekspertlər hesab edirlər ki, Rəisinin qarşısına islahatçılardan, yaxud liberallardan hər hansı güclü namizəd çıxmamışdı: əvvəlki prezident seçkilərində hakimiyyətə gəlmiş islahatçılar vətəndaşların ümidlərini doğrultmamışdılar, onların vəd etdikləri dəyişikliklər reallaşmamışdı. Odur ki, klassik mühafizəkar kimi səciyyələndirilən Rəisi elə bir müqavimətlə rastlaşmadan qələbəsini təmin etmişdir.

Başqa bir məqam da diqqəti cəlb edir ki, ABŞ-ın eks-prezidenti Donald Trampın İrana qarşı yürütdüyü siyasət ikitərəfli münasibətləri dalana salmış, nəticə etibarilə İran cəmiyyətində sərt xətt tərəfdarlarının imkanlarını genişləndirmişdir. Başqa sözlə, Vaşinqtonun İranın nüvə proqramına dair beynəlxalq sazişdən birtərəfli qaydada çıxıb Tehrana qarşı sanksiyaları bərpa etməsi iranlı mühafizəkarların işinə yaramış, onların namizədinin prezident seçkilərində qələbə qazanmasına imkan vermişdir.

Təbii ki, İranın yenicə seçilmiş Prezidentinin yeridəcəyi siyasət həm ölkə daxilində, həm də xaricdə ciddi maraq doğurur. Söhbət hər şeydən əvvəl ABŞ başda olmaqla Qərb dövlətləri ilə münasibətlərin gərginləşməsi, İrana qarşı tətbiq olunmuş beynəlxalq sanksiyaların qüvvədə qalması nəticəsində milli iqtisadiyyatın arzuolunmayan vəziyyətə düşməsindən qaynaqlanan problemlərdən gedir. Qərblə münasibətlərin normal məcraya qayıtması İranın seçilmiş Prezidentinin əl-qolunu açar, ölkənin qarşılaşdığı çoxsaylı çətinliklərin aradan qaldırılmasında az qala həlledici rol oynayar.

Məlum olduğu kimi, ABŞ-da Prezident Co Bayden hakimiyyətə gələndən sonra Qərb-İran münasibətlərini qaydaya salmaq üçün imkanlar yaranmışdır: həm Vaşinqton, həm də Tehran ikitərəfli əlaqələrdə gərginliyi aradan qaldırmaqda maraqlı görünür. Ağ evdən İrana yönəlik müsbət siqnallar gəlməkdə davam edir. Hazırda iki tərəf arasında Avstriyanın paytaxtı Vyanada birbaşa olmasa da, dolayı yolla dialoq davam edir. İran beynəlxalq sanksiyaların ləğv olunması müqabilində milli nüvə proqramına dair beynəlxalq sazişə qayıtmağa və həmin sənədə uyğun olaraq üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə hazırdır. Hələlik Vaşinqton Tehranın mövqeyini qəbul etməkdən uzaqdır.

Bununla belə, siyasi müşahidəçilər ABŞ-İran münasibətlərinin yaxın gələcəkdə inkişafından elə də bədbin deyillər. Ehtimal edilir ki, iki tərəf hansısa formada ortaq məxrəcə gələcək, mövcud gərginliyi azaltmağın yolunu açacaq. Yəqin ki, Vaşinqton nəzərə alır ki, eks-prezident Trampın İran siyasəti bu ölkəyə böyük ziyan vursa da, gözlənildiyi kimi, onun çökməsi ilə nəticələnmir. Belə ki, bütün beynəlxalq sanksiyalar davam etsə də, bu il İran iqtisadiyyatı son üç ildəkindən daha yaxşı görünəcək. ABŞ sanksiyalarının şok effekti arxada qalmışdır, pandemiya ilə əlaqədar məhdudiyyətlər azalır, idxal kəsiri qismən və ya tamamilə əvəzlənir, sanksiyalardan yan keçməyin yolları tədricən müəyyən edilir. Beynəlxalq Valyuta Fondunun proqnozuna görə, bu il İranın ÜDM-i 2 faiz artacaq. Odur ki, Prezident Baydenin sələfindən fərqli mövqe tutacağını gözləməyə dəyər.

İranda prezident vəzifəsinə mühafizəkar siyasətçinin seçilməsi tez-tez nəzərə çarpdırılaraq iddia olunur ki, guya, Rəisi səlahiyyətlərini icra etməyə başlayan kimi siyasi rəqibləri - islahatçılar və liberalları sıxışdıracaq, onları siyasət meydanından çıxarmağa çalışacaq. Əslində, belə gözləntilər üçün elə bir əsas yoxdur. Son onilliklər ərzində İran iqtidarında islahatçılarla mühafizəkarlar bir-birilərini əvəzləmişlər, amma onların hamısının rəhbər tutduğu başlıca prinsip praqmatizm olmuşdur, çünki xalqa ideologiyadan çox firavan həyat lazımdır. İbrahim Rəisinin də praqmatik siyasət yürüdəcəyinə şübhə etməmək olar.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan ərazisində terror-təxribat cinayətləri törədən erməni silahlı dəstələrinin üzvləri ilə bağlı növbəti məhkəmə iclası keçirilib



Ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla atəşkəsin elan edilməsindən sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvlərinin cinayət işi üzrə iyunun 21-də Bakı Ağır Cinayətlər Məhkəməsində növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə bu cinayət işi üzrə təqsirləndirilən 13 nəfər - Astanyan Yeqiş Oqanesoviç, Aramyan Karen Armenoviç, Avakyan Tiqran Manikoviç, Qevorkyan Qriqor Qevorqiyeviç, Manukyan Ovsep Robertoviç, Martirosyan Qevorg Samveloviç, Qevorkyan Robert Ovikoviç, Avetisyan Vaqarşaq Aşotoviç, Akopyan Volodya Qaqikoviç, Sukiasyan Andranik Srapoviç, Manukyan Andranik Tiqranoviç, Saqatelyan Qriqor Seyranoviç, Giraqusyan Eduard Armenoviçin terror-təxribat cinayətləri ilə bağlı cinayət işinə baxılıb.

İctimaiyyətə açıq və şəffaf şəkildə keçirilən məhkəmə iclasında yerli və xarici media nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər.

Məhkəmə iclasında təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib. Daha sonra təqsirləndirilən şəxslərə hüquqları izah edilib, onların dövlət hesabına vəkillərlə təmin olunduqları bildirilib.

Məhkəmədə vəkillər vəsatət qaldırsalar da, hakim vəsatəti təmin etməyib.

Növbəti - məhkəmə baxışı iclası iyulun 1-nə təyin edilib. Proses Bakı Apellyasiya Məhkəməsinin inzibati binasında keçiriləcək.

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərk-silah edilmiş üzvləri barəsində cinayət işinin istintaqı DTX-nin İstintaq Baş İdarəsində aparılıb.

İstintaqla müəyyən edilib ki, Ermənistan Respublikasının vətəndaşlarından ibarət bir qrup şəxs qanunsuz şəkildə odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaratmışlar. Həmin birləşmələrin üzvləri 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq 2020-ci il dekabrın 13-dək ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar edib, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Bu faktlarla bağlı qanunsuz silahlı birləşmənin üzvləri Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç və digərlərinin, ümumilikdə 14 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunurlar.

# Dövlət Sərhəd Xidməti Xəzər dənizində nəzarətin gücləndirilməsi istiqamətində tədbirləri davam etdirir

Dövlət Sərhəd Xidməti (DSX) dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi istiqamətində zəruri tədbirləri davam etdirir.



DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, iyunun 15-də Neftçala şəhər sakini Babayev Elmar Əlisahib oğluna məxsus "bayda" tipli üzmə vasitəsinin Xızı rayonunun Giləzi qəsəbəsi istiqamətindən dənizə çıxaraq qanunsuz balıq ovu ilə məşğul olması barədə məlumat daxil olub. Xidmətin Sahil Mühafizəsi tərəfindən müvafiq tədbirlər görülüb, həmin istiqamətə sərhəd gözətçi gəmiləri göndərilib, texniki müşahidə avadanlığı və radarlar vasitəsilə dənizə çıxan üzmə vasitələrinin hərəkəti nəzarətə götürülüb.

Dövlət sərhədinin gücləndirilmiş üsulla mühafizəsi təşkil olunaraq ərazidə əlavə sərhəd heyəti yerləşdirilib. Dənizə qanunsuz qaydada çıxmış üzmə vasitəsinin aşkarlanaraq saxlanılması istiqamətində zəruri əməliyyat-axtarış tədbirləri həyata keçirilib. Nəticədə həmin qayığın dövlət sərhədini pozaraq Xəzər dənizinin Azərbaycan Respublikasının ərazi sularından 192 mil (355 kilometr) məsafədə Rusiya Federasiyası və 211 mil (390 kilometr) məsafədə Qazaxıstan Respublikasının sektorunda qanunsuz nərə cinsli balıqların ovu ilə məşğul olması müəyyənləşdirilib.

Əldə edilmiş məlumatlara əsasən, Sahil Mühafizəsinin əməliyyat-axtarış qrupu tərəfindən Xızı rayonunun Giləzi qəsəbəsi yaxınlığında quruda və dənizdə xidmət təşkil edilib.

İyunun 19-da saat 21:00 radələrində həmin ərazidə aşkarlanan üzmə vasitəsi üç nəfər heyət üzvü ilə birlikdə saxlanılıb. Qayığa baxış zamanı içərisində ovlanması qadağan edilmiş 620 kiloqram çəkidə 106 nərə cinsli balıq aşkarlanıb. Saxlanılmış şəxslərin Astara rayon sakini 1976-cı il təvəllüdlü Mirzəyev Bəhruz Abutalıb oğlu, Neftçala rayon sakinləri 1963-cü il təvəllüdlü Əhmədov Raqib Novruz oğlu və 1985-ci il təvəllüdlü Bəxtiyarov Xəyal Fərhad oğlu olmaları müəyyənləşdirilib.

Əməliyyat-axtarış tədbirləri zamanı qayığı sahildə qarşılamağa gəlmiş "Opel Astra" markalı 99-SN-577 və "ZİL" markalı 01-BH-619 dövlət nömrə nişanlı avtomobillərdə üzmə vasitəsinin sahibi Babayev Elmar Əlisahib oğlu və digər üç nəfər - Abşeron rayon sakinləri 1998-ci il təvəllüdlü Mürşüdov Qismət İltifaq oğlu, 1997-ci il təvəllüdlü Müştaqov Fərzalı Növcavan oğlu və 1984-cü il təvəllüdlü İmaniyev Hövsət Pərvaz oğlu da saxlanılıblar.

Faktla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun əməkdaşları ilə birlikdə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# *ANAMA:* Ötən həftə 111 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan əməliyyatlar barədə həftəlik məlumatı açıqlayıb.




ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, iyunun 14-dən 19-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı piyada əleyhinə 89, tank əleyhinə 107 mina və 11 partlamamış hərbi sursat aşkarlanıb.

Əməliyyatlar nəticəsində 111 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Ermənistan silahlı qüvvələrinin Azərbaycanın meşələrini qəsdən məhv etməsi faktı ilə bağlı cinayət işi başlanıb

Xəbər verdiyimiz kimi, Ermənistanın silahlı qüvvələri tərəfindən beynəlxalq hüququnun əsas norma və prinsipləri, eləcə də "Canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" 1979-cu il tarixli Avropa Konvensiyasının tələbləri kobud şəkildə pozularaq Azərbaycan Respublikasının ətraf mühitinə qəsd edən geniş, uzun sürən və ciddi ziyan vurmaq məqsədilə işğala məruz qalmış ərazilərimizdə Azərbaycan Respublikasının təbii sərvəti hesab edilən qiymətli və çoxillik ağacları olan meşələri qəsdən məhv etməklə ölkəmizə qarşı ekoloji terrorçuluq cinayəti törədilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış araşdırmalarla Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə silahlı qüvvələri tərəfindən növbəti dəfə barbarlıq nümayiş etdirilərək nadir flora və faunası olan Laçın rayonunda işğaldan azad olunmasından az müddət öncə qanunsuz olaraq 1818 ədəd müxtəlifcinsli, kökü üstdə çoxillik ağacların kəsilməsinə və bunun nəticəsində ölkəmizə 1 milyon 511 min 330 manat məbləğində maddi ziyanın vurulmasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Baş Prokurorluqda Cinayət Məcəlləsinin 259.2.4-cü (külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) və digər maddələri ilə cinayət işi başlanıb, ibtidai istintaqın aparılması Baş Prokurorluğun rəhbərliyinin göstərişinə əsasən, İstintaq idarəsinə tapşırılıb.

Hazırda iş üzrə istintaq hərəkətləri aparılır.

# Narkotik vasitələrin onlayn ticarəti ilə məşğul olan cinayətkar dəstənin 27 üzvü yaxalanıb

Ölkə ərazisində, xüsusən onlayn yolla narkotik vasitə və psixotrop maddələrin satışını həyata keçirən mütəşəkkil cinayətkar dəstə üzvlərinin müəyyənləşdirilərək tutulması istiqamətində Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən bir neçə uğurlu əməliyyat tədbiri həyata keçirilib.



Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, narkomaniya gənclərin düçar ola biləcəyi ən böyük fəlakətdir. Cəmiyyətdə "ağ ölüm" kimi tanınan narkomaniya insan həyatında bərpası mümkün olmayan fəsadlar yaradan, irqindən, yaşından, dinindən asılı olmayaraq, bütün xalqları, millətləri düşündürən ən ağrılı problemlərdən biridir. Təəssüf ki, bu bəlaya ilk olaraq gənclər və yeniyetmələr yoluxurlar. Narkotik maddə alverçiləri bu yaş kateqoriyasına aid insanları asanlıqla öz girovlarına çevirməyə nail olurlar.

Dünya miqyasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi sahəsində hüquqazidd əməllərin qarşısının alınması istiqamətində ciddi addımlar atılsa da, "ağ ölüm"ün daha geniş miqyasda yayılmasının metodları gündən-günə yenilənir. Xüsusən XX əsrin sonu XXI əsrin əvvəllərindən başlayaraq yaşanan elmi-texniki tərəqqi nəticəsində gənclərin kütləvi şəkildə texnoloji yeniliklərə maraq göstərməsi bir tərəfdən təqdirəlayiq hal kimi qiymətləndirilsə də, narkotik vasitələrin də zaman və məkan anlayışı tanımadan geniş relyefdə yayılmasına yol açılıb. Xüsusən narkotik vasitələrin satışı ilə məşğul olan şəxslər qısa zamanda psixoloji problemləri olan, düzgün tərbiyə üsulları ilə böyüməyən və sonda sosial şəbəkələrə üz tutan gənc nəslin "əməyindən" öz çirkin əməlləri üçün istifadə edirlər. Belə olan halda bu qəbildən insanlar narkotiklərin satışı ilə məşğul olan şəxslərin sosial şəbəkələrdə onlara narkokuryerlik təklifini asanlıqla qəbul edirlər.

Rəhbərləri xarici ölkələrdən birində olan, ümumilikdə, 32 nəfərdən ibarət cinayətkar şəbəkənin narkotik vasitələrin onlayn satışı ilə məşğul olması barədə Baş İdarəyə verilmiş əməliyyat məlumatları əsasında silsilə tədbirlər həyata keçirilib. Nəticədə onlayn yolla narkotik vasitə və psixotrop maddələrin Azərbaycan ərazisində satışını təşkil edən mütəşəkkil dəstənin 27 üzvü əməliyyat zamanı saxlanılıb. Beş nəfər isə axtarışdadır. Araşdırma zamanı müəyyənləşdirilib ki, adları istintaqa məlum olan və xaricdə yaşayan dəstənin rəhbərləri narkotiklərin onlayn satışını həyata keçirən şəbəkə yaradıblar. Dəstə üzvləri müxtəlif üsullardan istifadə edərək verilən tapşırıqlar əsasında narkotik vasitələri Bakı şəhəri və respublikanın müxtəlif yerlərində yerləşdiriblər. Sonradan şəbəkəyə daxil olan narkokuryerlər həmin yerlərin şəklini çəkib "WhatsApp" ani mesajlaşma sistemi ilə dəstə başçılarına göndəriblər.

Qeyd edək ki, mütəşəkkil dəstəyə daxil olan və saxlanılan şəbəkə üzvləri öz aralarında gizliliyi saxlamaq və polis əməkdaşlarının diqqətindən yayınmaq üçün real həyatda bir-biriləri ilə ünsiyyətdə olmayıblar. Ancaq sosial şəbəkələrlə əlaqə saxlayan dəstə üzvlərinin hər birinin özünəməxsus kod adları da olub. Mütəşəkkil dəstənin başçıları narkokuryerliyə gənc qızları cəlb etməkdən də çəkinməyiblər. Təsadüfi deyil ki, saxlanılan 27 nəfərdən 7-si qadındır.

Baş İdarədə dəstə üzvləri ilə bağlı keçirilən əməliyyat-texniki tədbirlər nəticəsində onların narkotik vasitələrin satışı ilə bağlı aralarındakı gizli sövdələşmələri sübut edən yazışmalar, eləcə də Bakı şəhərinin demək olar ki, hər bir rayonunda mövcud olan və narkotik vasitələrin tədarük edildiyi saxlanc yerləri müəyyənləşdirilib. Baş İdarə əməkdaşlarının həmin məkanlara baxış keçirdikləri zaman külli miqdarda heroin, tiryək, marixuana, habelə metamfetamin, kokain, yüksək təsiredici psixotrop tərkibli dərmanlar, ekstazi həbləri, həmçinin narkotik vasitələrin onlayn satışı zamanı istifadə etdikləri bank kartları, ödəniş qəbzləri, müxtəlif ölkələrə məxsus mobil nömrələr və sair sübutlar aşkarlanaraq götürülüb. Saxlanılan şəxslərin hər biri narkotik vasitələrin aludəçisidir. Bu isə onların asanlıqla narkotiklərin satışı ilə məşğul olan şəxslərdən asılı vəziyyətə düşməsinə səbəb olub və onlardan narkokuryer kimi istifadə edilib.

İfşa edilən mütəşəkkil cinayətkar dəstənin üzvləri barəsində Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb. Hazırda dəstə üzvləri barəsində Bakı Ağır Cinayətlər Məhkəməsində cinayət işi üzrə icraat davam etməkdədir.

Azərbaycan Respublikası Səhiyyə nazirliyi 2 Nömrəli Baki Baza Tibb Kolleci 2021-ci ildə "Qeyri yaşayış binaların əsaslı təmiri satınalınması" kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştrak etmək üçün sənədlər elanın dərc olunduğu tarixdən bir ay müddətində, 22.07.2021 ilədək saat 17.00-a kimi qəbul olunur. Zərflərin acılışı 23.07.2021 tarixdə saat 12.00 - da olacaq

**Əlaqə nömrəsi : 012 431 16 59**

Azərbaycan Respublikası Səhiyyə nazirliyi 2 Nömrəli Baki Baza Tibb Kolleci 2021-ci ildə "Abadlaşdırılma xidmətlərin satınalınması" kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştrak etmək üçün sənədlər elanın dərc olunduğu tarixdən bir ay müddətində, 22.07.2021 ilədək saat 17.00-a kimi qəbul olunur. Zərflərin acılışı 23.07.2021 tarixdə saat 12.00 - da olacaq

**Əlaqə nömrəsi : 012 431 16 59**

Azərbaycan Respublikası Səhiyyə nazirliyi 2 Nömrəli Baki Baza Tibb Kolleci 2021-ci ildə "Maşın və avadanlığların satınalınması" kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştrak etmək üçün sənədlər elanın dərc olunduğu tarixdən bir ay müddətində, 22.07.2021 ilədək saat 17.00-a kimi qəbul olunur. Zərflərin acılışı 23.07.2021 tarixdə saat 12.00 - da olacaq.

**Əlaqə nömrəsi : 012 431 16 59**

# 80 illik ibrət dərsi

*Əvvəli 1-ci səh.*

Bu sınaq yüz milyonlarla ailəyə, nəsillərə elə ağır yaralar vurdu ki, onun təsirləri indiyə qədər özünü hiss etdirməkdədir. Faşizmə qarşı mübarizədə və qələbənin əldə edilməsində böyük rol oynamış Azərbaycanda da elə bir ailə tapılmaz ki, bu fəlakətin, müharibənin dəhşətlərinin acılarını yaşamamış olsun.



## "Barbarossa" planı

22 iyun 1941-ci il Hitler Almaniyasının SSRİ-yə hücum etdiyi gündür. Hitlerçilərin "Barbarossa" əməliyyatı adlandırdıqları bu ildırımsürətli müharibə planı üçün Müqəddəs Roma imperiyasının imperatoru I Fridrix Barbarossanın adı seçilmişdi. Əməliyyat 1940-cı il iyulun 21-dən etibarən general Fridrix Paulusun rəhbərliyi altında hazırlanmış, həmin ilin 18 dekabrında Vermaxtın ali baş komandanı Adolf Hitlerin 21 nömrəli direktivi ilə təsdiqlənmişdi. Plana əsasən, 3 ay ərzində SSRİ-nin Avropa hissəsi faşistlərin nəzarətinə keçməli idi.

Əməliyyatı 1941-ci ilin 22 iyun günü 4,5 milyon nəfərlik alman ordusunun hücumu ilə və SSRİ-nin 2 900 kilometrlik sərhədi boyunca icra etməyə başlamışdılar. Bu hadisə dünyanın hərb tarixinə ən böyük hücum əməliyyatı kimi daxil olmuşdu. Əməliyyata 60 000 texnika, 750 000 at cəlb edilmişdi. Belə nəhəng hücum planı ilə hitlerçilər sovet qoşunlarını dövrəyə alıb sıradan çıxarmaq, qışa qədər ölkənin içərilərinə doğru irəliləyərək Arxangelsk-Həştərxan xəttinə çıxmaq istəyirdilər.

Hücum qəfil başlanmışdı. Amma ümumən ötən əsrin 30-cu illərində beynəlxalq münasibətlər sistemində baş verənlər İkinci Dünya müharibəsinin olacağını və Almaniyanın SSRİ-yə hücumunu addım-addım yaxınlaşdırmışdı.

## Səbəblər, niyyətlər

Almaniyanın məğlub olduğu Birinci Dünya müharibəsindən sonra qalib dövlətlərin yaratdıqları Versal-Vaşinqton sistemi almanlara çox sərt və alçaldıcı gəlirdi. Buna görə Almaniyada qisasçılıq və militarizm ideyası güclənirdi. Hitler "reyx"inin irqçilik, "dəyərsiz xalqları" əsarət altına almaq siyasəti, ümumən dünya ağalığına nail olmaq iddiaları kütləyə cəlbedici görünürdü. Qərb dövlətləri, xüsusən İngiltərə və Fransa nasizmin bəşəriyyət üçün təhlükəli mahiyyətini dərk etmirdilər. Hətta onu şirnikləndirmək siyasəti aparırdılar. İri dövlətlər, o cümlədən ABŞ proseslərə "qarışmamaq" mövqeyi tutmuşdu. Üstəlik, ABŞ başda olmaqla böyük dövlətlər Almaniyanın iqtisadi-hərbi cəhətdən dirçəlməsinə yardım göstərirdilər. Sosializmə nifrət edən ölkələr SSRİ ilə birlikdə faşizmə qarşı alternativ ittifaq yaratmaq marağında deyildilər. Digər tərəfdən, SSRİ də müharibəni özündən uzaqlaşdırmaq üçün Almaniyaya müəyyən güzəştlər edirdi. Hətta onunla iqtisadi əlaqələr yaradırdı. 1930-cu illərin axırlarında Avropada və Şərqdə hərbi-sənaye kompleksləri də genişlənmişdi. Bütün bunlar irimiqyaslı müharibənin addım səsləri sayıla bilərdi.

1938-ci ilin sentyabrında əldə olunmuş Münhen sövdələşməsi Mərkəzi Avropada vəziyyəti kökündən dəyişdi. Hitler Almaniyasının mövqeyi xeyli gücləndi. Böyük Britaniya və Fransa kimi böyük dövlətlər Münhen sövdələşməsi kimi taktiki gedişlərlə Hitler Almaniyasına şərait yaratmaqla sovetlərə qarşı plan qururdular. Faşist Almaniyasının tezliklə SSRİ ilə toqquşacağını zənn edirdilər. Amma hadisələrin sonrakı gedişi göstərdi ki, bu güman əsassızmış. Çünki hitlerçilər, ilk növbədə, daha zəif rəqibləri sıradan çıxarmağı üstün tutdular.

## İldırımsürətli hücum

Əvvəlcə Qərbi Polşa viran qoyuldu. Sazişə uyğun olaraq Polşanın şərq yarısı, Estoniya, Latviya və Litva SSRİ-nin nəzarətinə keçdi. 1940-cı ilin aprel və may aylarında faşistlər qəflətən Norveçi, Danimarkanı və Niderlandı işğal edib Belçikaya hücuma başladılar. 1940-cı ilin mayında isə Fransa cəmi 6 həftəlik əməliyyatdan sonra hitlerçilərə təslim oldu.

Qərbdə faşist Almaniyası ilə üzüzə qalan yeganə qüvvə Böyük Britaniya idi. Bu ölkə mühüm dayaq nöqtələrini, kommunikasiya xətlərini əlində saxlamaqla müqaviməti davam etdirsə də, Fransanın təslim olmasından sonra Hitler qərbdə öz məqsədlərinə çatdığını güman edirdi. Ona görə də 1940-1941-ci illərin qışında almanlar hücumlarının ağırlığını şərqə tərəf döndərməyə başladılar. Fürer qərara almışdı ki, Böyük Britaniya ilə məsələni tamamlamazdan qabaq SSRİ məsələsini həll etməlidir. Bu da səbəbsiz deyildi. 1939-cu ilin 23 avqustunda SSRİ ilə Almaniya arasında imzalanmış və tarixə "Molotov-Ribbentrop" pakti kimi düşmüş müqavilənin məxfi protokoluna əsasən, Stalin ona vəd edilən əraziləri, demək olar ki, hamısını almışdı. Bununla belə, Stalinin Balkan yarımadasına və Qara dəniz boğazlarına olan iddiaları Hitleri ciddi şəkildə narahat edirdi. "Barbarossa planı"nın əsas məqsədi də SSRİ ilə məsələni tez bitirmək idi.

## Moskva ətrafında döyüşlər

SSRİ-nin bir çox təcrübəli ordu komandirləri "Barbarossa hücumu" ərəfəsində repressiyanın qurbanı olmuşdular. Qərb sərhədlərindəki hərbi hissələr hələ tam komplektləşdirilməmişdi. Faşistlər isə əksinə, bu əməliyyata ciddi şəkildə hazırlaşmışdılar. Daha yaxşı silahlanmışdılar, müasir döyüş təcrübəsinə malik idilər. Ona görə də sovet hərbi birləşmələri hücumun ilk mərhələsində alman qoşunlarının güclü hücumuna tab gətirə bilmədi. Böyük itkilər verərək ölkənin içərilərinə doğru sürətlə geri çəkildi. Hitlerçilər müharibənin elə birinci həftəsində Leninqrad (Sankt-Peterburq) və Kiyevə yaxınlaşdılar, Smolenski ələ keçirdilər. Sentyabrda alman ordusu Kiyevi tutdu, Leninqradı mühasirəyə aldı və Moskva üzərinə güclü hücuma keçdi. Amma sovet ordusu tezliklə təşəbbüsü ələ aldı. Alman qoşunları Moskva döyüşündə darmadağın edilərək geri oturduldu. Beləliklə, "Barbarossa" planı iflasa uğradı. Hitlerin ildırımsürətli müharibə planı puç oldu.

Noyabrın 15-də alman qoşunları böyük qüvvə ilə SSRİ paytaxtı üzərinə ikinci dəfə hücuma keçdilər. Bəzi yerlərdə Moskvaya hətta 5 km-ə qədər yaxınlaşa bildilər. Amma sovet qoşunları alman ordusunu müdafiə döyüşləri ilə yordular və tam taqətdən saldılar. 1941-ci ilin 5 və 6 dekabrında isə hitlerçilər üzərinə əks-hücum başlandı. Almanlar 100-250 km-ə qədər geriyə çəkilməli oldular.

Bu, Hitler ordusunun İkinci Dünya müharibəsindəki ən böyük məğlubiyyəti idi.

## Azərbaycanlıların hünəri

Moskva ətrafındakı döyüşlərdə başqa xalqların nümayəndələri ilə birgə minlərlə azərbaycanlı əsgər və zabit də döyüşürdü. Ümumən, 1941-1945-ci illərdə faşizmə qarşı mübarizədə 641 mindən çox azərbaycanlı iştirak edirdi. Onların 10 mindən çoxu qadın idi. Azərbaycanın cəmi 3,4 milyon əhalisi vardı. Cəbhə xətti üçün Azərbaycanda 15 min tibb işçisi, 750 rabitəçi, 3 min sürücü hazırlanmışdı. Azərbaycan ərazisində 87 batalyon, 1123 özünümüdafiə, 5 piyada dəstələri yaradılmışdı. Qızıl Ordunun 8 diviziyasının əksər hissəsini azərbaycanlılar təşkil edirdi.

Azərbaycandan olan əsgər və zabitlər, əsasən, Brest qalası, Leninqrad, Moskva, Stalinqrad, Qafqaz uğrunda gedən döyüşlərdə iştirak etmiş, Kursk, Berlin uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmişdilər. Ukraynada, Krım yarımadasında vuruşan, Pribaltikanı, Şərqi Avropanı azad edən hərbi birləşmələrin tərkibində də xeyli sayda azərbaycanlı vardı. Fransada, İtaliyada, Krımda, Belarusda azərbaycanlıların rəhbərlik etdiyi partizan dəstələri yaradılmışdı. Məsələn, Fransadakı azərbaycanlı partizan dəstəsinə Hüseynrza Məmmədov, İtaliyadakı azərbaycanlı partizan dəstəsinə Cavad Həkimli, Krımdakı Azərbaycan partizan dəstəsinə Məmməd Əliyev, Belarusda fəaliyyət göstərən partizan dəstəsinə Məmməd İsayev rəhbərlik edirdi. O dövrdə Fransanın azadlığı uğrunda vuruşaraq böyük hünər göstərmiş Azərbaycan partizanlarından "Xarqo" ləqəbli Əhmədiyyə Cəbrayılovun qəhrəmanlığı dillər əzbəridir. 1941-1945-ci illərdə ölkəmizdən döyüşlərə yollanan 300 min vətəndaşımız həlak olmuşdu. İkinci Dünya müharibəsi zamanı göstərdiyi qəhrəmanlıq və şücaətə görə Azərbaycandan 128 nəfər Sovet İttifaqı Qəhrəmanı adını qazanmışdı. Onlardan 42 nəfəri milliyyətcə azərbaycanlı idi. Sovet İttifaqı Qəhrəmanı adını alan ilk azərbaycanlı leytenant İsrafil Məmmədov olmuşdu. 42 nəfərdən 14 nəfəri ölümündən sonra bu ada layiq görülmüşdü. General Həzi Aslanov daxil olmaqla, 3 nəfər həmyerlimizə Sovet İttifaqı Qəhrəmanı adı iki dəfə verilmişdi.

1945-ci il mayın 2-də səhər saatlarında döyüşçülər Məmmədov, Əhmədzadə, Berejnoy və Andreyevin leytenant A.Məcidovun rəhbərliyi altında Brandenburq qapısı üzərində qalibiyyət bayrağını qaldırması da Azərbaycan xalqının faşizmə qarşı mübarizəsinə yüksək dəyərin ifadəsi idi.

## Bakı nefti ilə qazanılan qələbə

Müharibə zamanı Bakı nefti Hitler üçün ən əhəmiyyətli məsələlərdən sayılırdı. Qafqaz uğrundakı döyüşlərdə almanlar əsas hədəf kimi Bakını və paytaxtımızın neft-qaz sənayesini nəzarətə götürməyi qarşılarına başlıca hədəf qoymuşdular. Bu da səbəbsiz deyildi. Bakı Sovet iqtisadiyyatının əsas neft mənbəyi sayılırdı. SSRİ neftinin 80 faizi Azərbaycanda çıxarılırdı. Bakı neftçiləri gecə-gündüz çalışaraq cəbhə xəttində faşist ordusuna qarşı vuruşan texnikanı, məhsul istehsal edən zavod və fabrikləri yanacaqla təmin edirdilər. Böyük Vətən müharibəsi dövründə hərbi ehtiyaclar üçün, ümumilikdə, 75 milyon ton neft göndərilmişdi. Sovet ordusunun əsas rəhbərlərindən olan marşal Georgi Jukov Bakı neftçilərinin düşmən üzərində tez qələbə çalmaq üçün cəbhəyə və ölkəyə lazım olan qədər yanacaq verdiklərini rəğbət hissi ilə xüsusi qeyd edirdi.

O illərdə hərbi hissələri və müəssisələri yanacaqla təmin edən xüsusi təyinatlı qərargahı idarə etmiş Bakı sakini Nikolay Konstantinoviç Baybakov isə yazırdı ki, sovet döyüş maşınlarının 75-80 faizi bakılıların əməyi sayəsində hərəkət edirdi. Müharibənin taleyi onların işindən asılı idi. Ön cəbhədə olmadan, Azərbaycanın paytaxtı neft arteriyaları vasitəsilə sovet ordusunun əməliyyat qrupu ilə əlaqədə idilər.

## "Hər şey cəbhə üçün! Hər şey qələbə üçün!"

Müharibənin ilk günlərindən Azərbaycan əhalisi "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ilə çalışırdı. Bütün sahələr cəbhənin tələbatına xidmət edirdi. İstehsal sahələri hərbi təchizat, qida və digər məhsulların tədarükünə keçmişdi. Ordunun təminatı üçün Azərbaycanda əvvəllər istehsal olunmayan böyük miqdarda ərzaq, geyim, ayaqqabı və digər mallar hazırlanırdı. Əmək qabiliyyətli kişilərin çoxu cəbhəyə getmişdi. Qadınlar, yeniyetmələr, qocalar, uşaqlar zavod və fabriklərdə, tarlalarda onların da yerinə çalışırdılar. Hər kəs qələbəyə bacardığı töhfəni verməyi qarşısına məqsəd qoymuşdu. Qız-gəlinlər, anabacılar ağır iş günündən sonra gecə lampa işığında toxuduqları corablardan, əlcəklərdən nişan üzüklərinə, cehizlik yorğan-döşəklərinin yununa qədər orduya göndərir, uzaq cəbhələrdə faşizmə qarşı qanlı döyüşlərdə iştirak edən doğmalarına faydalı olmağa can atırdılar. Təkcə bir faktı yada salaq ki, Azərbaycan sakinlərinin şəxsi ehtiyatlarından müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 320 mln. rubl verilmişdi. Böyük Vətən müharibəsi dövründə Bakıda və ölkə daxilində onlarca hərbi xəstəxana fəaliyyət göstərmişdi. Minlərlə həmvətənimiz macal tapan kimi bu xəstəxanalara gəlir, bacardıqları işlərdə tibb işçilərinə kömək göstərməyə çalışmışdı. Rəsmi məlumatlara görə, Azərbaycandakı xəstəxanalarında yarım milyon sovet əsgəri müalicə edilmişdi. Onların çoxu müharibədən sonra Azərbaycanda qalmış, həyatını xilas etmiş bu günəşli ölkəni özünə Vətən seçmişdi.

Ağır sınaq, böyük bir bəlanı birlikdə dəf etmək ehtiyacı onda xalqı yumruq kimi birləşdirmişdi. Bu birliyin, vəhdətin qələbə üçün nə qədər böyük anlam kəsb etdiyini 44 günlük Vətən müharibəsində də hər birimiz gördük. 80 il əvvəl müsəlləh əsgər kimi səfərbər olaraq ön və arxa cəbhədə faşizmə qarşı gecə-gündüz döyüşən, qələbə qazanan Azərbaycan xalqı birliyinin gücü ilə erməni faşizminin də başını "Dəmir yumruq"la əzdi. Müzəffər ordumuz Ali Baş Komandan İlham Əliyevin sərkərdə qüdrəti ilə böyük bir tarix yazdı. Faşizmin necə dəhşətli bəla olduğunu və onun müəyyən simptomlarının təfəkkürlərdə indiyə qədər qaldığını erməni faşistlərinin işğal altındakı torpaqlarımızda törətdikləri dağıntılar, vandalizm aktları fonunda bütün dünyaya göstərdi. Faşizm həqiqətən bəşəriyyət üçün böyük təhlükədir və onun ən kiçik əlamətlərinə qarşı bütün dünya öz səylərini birləşdirməlidir. Bu xəstəliyə yoluxan toplumların sağalmasına hamı çalışmalıdır. Yoxsa nəticə çox dəhşətli olar.

Tarixin ən qanlı müharibəsi kimi tanınan İkinci Dünya savaşının qurbanlarının dəqiq sayı bu günə qədər məlum deyil. Dünyanın 70-ə yaxın dövlətinin cəlb olunduğu bu müharibədə həlak olanların sayının əksər mənbələrdə 70 milyona yaxın olduğu yazılır. Müharibədə həyatını itirənlərin təxminən 25 milyonu hərbçi, qalanı dinc əhali olub. Müharibə qurbanlarının təqribi 23 milyonu keçmiş SSRİ ölkələrinin payına düşür. İndi bunlar adama quru, adi statistika kimi görünür. Amma bu rəqəmlərin hər birinin arxasında ailələrin, bütöv nəsillərin faciəsi, ağrıacısı dayanır.

Dağıdılmış ölkə, şəhər, kənd və qəsəbələri, milyardlarla insanın düzəni pozulmuş həyatını, müharibənin ölkələrin iqtisadiyyatına, cəmiyyətin sosial-mənəvi həyatına vurduğu ağır yaraları hələ buna aid etmirik.

## Birliyin gücü

Müharibənin əvvəlindən sonuna qədər iştirak edən, bir neçə dəfə ağır yaralanan atam xatırlayırdı ki, qələbədən sonra cəmiyyət həyatında böyük problemlər başlanmışdı. Sağ qalan hərbçilərin əksər hissəsi tərxis olunaraq doğma evlərinə qayıtmışdılar. Gündə neçə dəfə ölümlə üz-üzə gələn, odun-alovun içindən sağ-salamat çıxan, psixi sarsıntılar keçirən bu insanları evlərində yeni çətinliklər gözləyirdi. Atam müharibədən il yarım sonra döndü. Berlinin bərpa-quruculuq işlərində də iştirak etmişdi. Vətənə qayıdan kimi ölkə rəhbərliyinin göstərişi ilə Bakıdakı əsas ictimai-iaşə müəssisələrindən birinin rəhbəri təyin olunmuşdu. Cəbhə yoldaşlarının bir neçəsini, hətta keçmiş komandirlərini öz yanında işə götürmüşdü. Sonralar onlar harada çalışmalarından asılı olmayaraq tez-tez evimizdə yığışardılar. Əlamətdar günləri süfrə arxasında birgə qeyd edər, cəbhə xatirələrini bölüşərdilər. Danışardılar ki, ölkə iqtisadiyyatı müharibədən sonrakı ilk illərdə qalib əsgərlərin hamısını işlə təmin edəcək, sosial problemlərini yoluna qoyacaq səviyyədə deyildi. Ona görə də xüsusən 1940-cı illərin sonu, 1950-ci illərin əvvəllərində cəmiyyətdə mənəvi böhran özünü göstərirdi. Quldurluq halları artırdı. Ağır cinayət əməlləri törədən bandaların, cinayətkar qrupların fəaliyyəti hüquq mühafizə orqanları üçün ciddi problemə çevrilmişdi. Müharibədən sonrakı dövrə həsr olunmuş bədii filmlərdə, ayrı-ayrı əsərlərdə də bu elementlərə rast gəlirik. Amma cəmiyyət birliyinin gücü ilə bu problemləri də zamanla yoluna qoydu.

Heç bir sosial problem, müvəqqəti çətinlik faşizmdən dəhşətli bəla deyil. Hitler Almaniyasının SSRİ-yə hücumundan ötən 80 il faşizmin dünya üçün nə qədər böyük bir təhlükə olduğunu anlamaqdan ötrü bu böyük bir ibrət dərsidir. Bu dərsdən hər kəs nəticə çıxarmalı və bəşəriyyət tarixinin utanc dolu səhifələrinin yenidən yazılmasına heç zaman imkan verməməlidir. Faşizm dəhşətləri dünyaya acılardan, itkilərdən, dağıntı və böhranlardan başqa heç nə verə bilməz. Bəşəriyyətin xoşbəxtliyi sülhdə, əməkdaşlıqda, inkişaf məqsədlərinə doğru birgə hərəkətdədir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Ermənistan faşizmə və "müharibə partiyası"na "yox" dedi

## Erməni xalqı iki şər qüvvə arasından nisbətən zərərsizini seçdi

*Əvvəli 1-ci səh.*

Adıçəkilən blok səslərin 21,04 faizini toplaya bilib. Bunlardan başqa, 5,23 faiz səs qazanmış, lakin bloklar üçün nəzərdə tutulan 7 faizlik həddi aşmayan Artur Vanetsyanın başçılıq etdiyi blok da mandat alacaq. Ermənistan qanunlarına əsasən, səsvermə nəticəsində yalnız iki siyasi qüvvə parlamentdə təmsil olunmaq üçün kifayət qədər səs qazanarsa, üçüncü, daha çox səs qazanmış siyasi qüvvəyə də parlamentdə təmsil olunmaq haqqı verilir.

Əvvəlcədən bəlli olduğu kimi, seçkilərdə əsas rəqiblər baş nazir vəzifəsini icra edən N. Paşinyanla, Xocalı qətliamının iştirakçısı, günahsız soydaşlarımıza qarşı amansız terrorun təşkilatçılarından biri olan Robert Koçaryan hesab olunurdu. Yəni erməni xalqı iki şər arasında seçim etməli idi. İllərdir səfalət içərisində yaşayan xalq məcburiyyət qarşısında qalaraq seçimini etdi və iki pisin arasından nisbətən zərərsizinə səs verdi.

R.Köçəryanın yürütdüyü siyasətin qurbanına çevrilən erməni xalqı onu yaxşı tanıyırdı. Qarabağı işğal etməklə Ermənistanı ağır məhrumiyyətlərə düçar edən Köçəryanın seçkidə qalib gəlməyəcəyi əvvəlcədən gözlənilirdi. Erməni xalqı terrora dövlət səviyyəsində dəstək verən, iyrənc siyasət yürüdərək ölkəsini xaosa sürükləyən şəxsə etimad göstərə bilməzdi. Ən əsası ona görə ki, məhz Köçəryanın dövründə Ermənistan acınacaqlı vəziyyətə düşmüşdü. Onun prezident olduğu illərdən Ermənistanda rüşvətxorluq, korrupsiya, qanunsuzluq halları və banditizm çiçəklənib. Bölgədə reallaşan bütün transmilli layihələrdən kənarda qalan ölkəni tərk edənlərin sayı hər il artıb. Hətta Robert Köçəryanın vaxtında Ermənistan vətəndaşları ailəlikcə hakimiyyətin zülmündən qaçaraq Naxçıvana keçmişdilər.

N.Paşinyan isə hakimiyyətə gələndə əvvəlcə yeni baxış, yeni mövqe nümayiş etdirəcəyini söyləsə də, sonradan havadarlarına arxalanıb "qırmızı xətt"i keçdi. Beynəlxalq toplantılar çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüşlərdə başqa fikirlər söyləsə də, Ermənistanda fərqli sözlər deyirdi. Sonda isə "Qarabağ Ermənistanındır" kimi sərsəm fikrini söyləməklə işğal edilmiş Azərbaycan torpaqlarının sülh yolu ilə geri qaytarılmasının qeyri-mümkünlüyünü iddia etdi. Bununla da Paşinyan əsl erməni xislətini ortaya qoydu və "yenilikçi" olması fikrinin üstündən xətt çəkdi.

Yəni bu şəxs İkinci Qarabağ müharibəsinin başlanmasına rəvac verən hərəkətlər, jestlər və sonda təxribatlar etməklə xalqını qırğına verdi. "Güclü" ordusuna güvənib Azərbaycanla savaşa başladı və nəticədə İlham Əliyevin qarşısında diz çökmək məcburiyyətində qaldı. Kapitulyasiya sənədinə qol çəkərək işğal edilmiş bir neçə rayonumuzu bir güllə atılmadan Azərbaycana qaytardı. Ölkəsində rəzil vəziyyətə düşdü.

İndi son seçkilərdə səslərin çox hissəsini qazanmasının səbəbləri də bəllidir. N.Paşinyan həm parlamentdəki çıxışlarında, həm də vətəndaşlarla görüşlərində vurğulayırdı ki, artıq reallıqları qəbul etmək lazımdır. Regionda kommunikasiyaların blokadadan çıxarılması həm Ermənistan, həm də Azərbaycan üçün faydalıdır. Yolların açılması Azərbaycan üçün faydalıdır, çünki onun Naxçıvanla əlaqəsi olmalıdır, Ermənistan üçün də faydalıdır, çünki Rusiya və İranla etibarlı dəmir yolu əlaqəsinə ehtiyac var. Bu, Ermənistan iqtisadiyyatını əhəmiyyətli dərəcədə dəyişə bilər. Paşinyana görə, bölgədəki ən böyük problem Ermənistanın düşmən kimi qəbul edilməsi və bu ölkənin də digərlərini düşmən hesab etməsidir.

Bu fikirlər müharibədəki məğlubiyyətdən sonra erməni cəmiyyətinin N.Paşinyana qarşı olan hirsini bir qədər soyutdu. Çünki illərdir acınacaqlı durumda yaşayan sadə ermənilər yaxşı anlayırlar ki, bu durumdan qurtuluşun yeganə yolu Azərbaycanla münasibətlərin normallaşmasıdır. Belə olan halda Ermənistan hansısa layihələrə qoşula bilər və iqtisadiyyatında dirçəlmə yaranar. Yəni Azərbaycanın irəli sürdiyi şərtlərin qəbul edilməsi Ermənistanın qurtuluşu ola bilər. Məhz buna görə də erməni xalqı iki şər qüvvənin arasından N.Paşinyanı seçdi. Ancaq o da bəllidir ki, N.Paşinyan Azərbaycanın irəli sürdüyü şərtlərə əməl etməsə, Ermənistanın durumu getdikcə daha da ağırlaşacaq, bu ölkə səfalət içində boğulacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistanın seçimi yenə Paşinyan oldu

## R.Köçəryan isə seçkilərin nəticələrini tanımır

Ermənistan cəmiyyəti iyunun 20-də keçirilmiş növbədənkənar parlament seçkilərinə dərin siyasi böhran fonunda, eləcə də bir-biri ilə açıq düşmənçilik edən düşərgələrə bölünmüş vəziyyətdə getdi. Gözlənildiyi kimi, seçkilərdə əsas rəqiblər Nikol Paşinyanın "Vətəndaş Müqaviləsi" partiyası və sabiq prezident Robert Köçəryanın "Ermənistan" bloku oldu.

Ermənistan Mərkəzi Seçki Komissiyasının (MSK) bütün 2008 seçki məntəqəsindən əldə olunmuş bülletenlərin sayılması əsasında açıqladığı hesabatda bildirilir ki, 1 milyon 281911 bülleten sayıldıqdan sonra Nikol Paşinyanın "Vətəndaş Müqaviləsi" partiyasının 53,92 faiz (687 251 seçici), keçmiş prezident Robert Köçəryanın rəhbərlik etdiyi "Ermənistan" blokunun isə 21,04 faiz (268 165 seçici) səs topladığı təsdiqlənib. Sabiq prezident Serj Sarkisyana bağlı "Şərəfim var" bloku 5,23 faiz (66 633 seçici), "Çiçəklənən Ermənistan" partiyası isə 3,96 faiz (50 416 seçici) seçicinin dəstəyini qazanıb. "Parlaq Ermənistan" - 1,22 faiz (15 557 seçici), Erməni Milli Konqresi - 1,54 faiz (19 647 seçici) səslə onların ardınca gəlir.

Mərkəzi Seçki Komissiyasının rəhbəri Tiqran Mukuçyan bildirib ki, Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərində seçici iştirakı 49,4 faiz təşkil edib. Seçkilərdə, ümumiyyətlə, 25 siyasi təşkilat iştirak edib. Əsas mübarizə Nikol Paşinyanın "Vətəndaş Müqaviləsi" partiyası ilə "Ermənistan" blokunu formalaşdırmış Robert Köçəryanın arasında gedib. Partiya blokları üçün keçid baryeri 7, partiyalar üçün 5 faiz təşkil edir.

O da qeyd edilir ki, Paşinyanın hökuməti formalaşdırması üçün 0,08 səsi çatmayıb. Lakin yekun nəticələr Paşinyana istədiyinə nail olmağa imkan verir. Nikol Paşinyan bu xüsusda bildirir: "Ermənistanın Mərkəzi Seçki Komissiyasının yaydığı ilkin məlumatlara görə, "Vətəndaş Müqaviləsi" partiyası yeni seçilən parlamentdə 105 yerdən ən azı 71-nə sahib olmaqla konstitusional çoxluğa malik olacaq".

Seçkilərdə bir sıra qanun pozuntuları, hətta silahlı insident qeydə alınıb. Ermənistanın Baş Prokurorluğu quruma seçki pozuntuları ilə bağlı 319 məlumatın daxil olduğunu açıqlayıb. Öz növbəsində, İstintaq Komitəsi də xeyli sayda qanun pozuntusunun aşkarlandığını bildirib. Seçkilərdə qeydə alınmış qanun pozuntuları ilə əlaqədar bir neçə cinayət işi qaldırılıb. Lakin bütün bunlar seçkilərin nəticələrinə təsir etmək imkanında deyil. Ölkə müxalifəti seçkilərin nəticələri ilə razılaşmadığını bildirib.

Bununla belə, "Ermənistan" blokunun bəyanatında qeyd olunur ki, indiyədək Ermənistan tarixində seçki prosesində heç vaxt belə həcmdə pozuntu qeydə alınmayıb. Bəyanatda həmçinin vurğulanır ki, Ermənistan Mərkəzi Seçki Komissiyası sükut gününün qaydasını pozduğu üçün Nikol Paşinyana xəbərdarlıq edib. Bildirilir ki, hələ seçkilərdən əvvəl "Ermənistan" blokunun liderlərinə ünvanlanan təhqiramiz və nifrət dolu materiallar yayılıb.

Əldə olunan məlumata görə, bu biabırçı proses hökumətin icazəsi ilə Sorosçu təşkilatlar tərəfindən təşkil edilib. Eyni zamanda "Ermənistan" blokunun regional qərargahının üzvləri yalan məlumatlar əsasında nəzarət altına alınıblar. O da diqqətə çatdırılıb ki, belə çirkin oyunların Sorosçu təşkilatlar tərəfindən təşkil edilməsinə dair bütün əsaslar var. Blok bəyan edib ki, seçkiləri izləyən beynəlxalq müşahidə missiyalarının diqqətini qanun pozuntularına çəkməyə davam edəcəklər.

"Ermənistan" blokunun bəyanatında daha sonra deyilir: "Bütün problemli məsələlər aydınlaşdırılmayınca və şübhələrə son qoyulmayınca seçkilərin nəticələrini qəbul etməyəcəyik".

Blokdan bildirilib ki, növbədənkənar parlament seçkilərinin dərc edilmiş nəticələri olduqca ziddir və etimada səbəb olmur: "Onlar ictimai həyatın müxtəlif təzahürləri, sorğuların nəticələri, həmçinin beynəlxalq sorğular, eləcə də sağlam düşüncə ilə kəskin ziddiyyət təşkil edir".

Müxalifət qüvvələrinin təşviqat kampaniyasının gedişində keçirilmiş izdihamlı mitinqləri və hakimiyyət orqanları tərəfindən təşkil olunan kiçik tədbirlər zamanı etimad böhranı tamamilə fərqli ictimai hisslərin mövcudluğunu göstərib: "Etimadsızlığın ən ciddi əsası seçki günü müxtəlif seçki məntəqələrindən gələn yüzlərlə siqnaldır ki, bu da seçki nəticələrinin sistemli, əvvəlcədən planlaşdırılan saxtalaşdırılmasına şahidlik edir. "Ermənistan" bloku iddia edilən pozuntularla bağlı dərhal dərin və əsaslı bir araşdırma aparmaq vəzifəsini qaldırır".

Paşinyan isə qeyd edir ki, seçkilərdə nəticələrə təsir edə biləcək ciddi pozuntular qeydə alınmayıb. Onu da əlavə edir ki, bundan sonra Avrasiya İttifaqı və KTMT ilə əlaqələri yaxşılaşdırmaq, inkişaf etdirmək niyyətindədir. O, Ermənistanın bundan sonra da KTMT və Avrasiya İttifaqı istiqamətində irəliləyəcəyini bildirib.

İndi isə hesab edilir ki, Robert Köçəryan bir müddət seçkilərin nəticələrini tanımayacaq. Amma Paşinyana təzyiq üçün parlamentdə təmsil olunacaq. Bu fonda Paşinyan, bəyan etdiyi kimi, bütün əleyhdarlarına qarşı total hücumlar həyata keçirəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***






# Yenə alınmadı...

## A qrupunun birincisi İtaliya, sonuncusu Türkiyə oldu





"Avro-2020"nin final mərhələsində A qrupunda mübarizə aparan Türkiyə millisinin İtaliya və Uels yığmaları ilə görüşlərdə məğlub olmasına baxmayaraq, sonuncu - üçüncü turda uğurlu nəticə əldə edəcəyi halda az da olsa pley-offa adlamaq şansı qalırdı. Lakin qardaş ölkənin futbolçuları bu dəfə də sönük, həvəssiz oyun nümayiş etdirərək qələbə qazana bilmədilər və milyonlarla azarkeşini məyus etdilər.







Bakı Olimpiya Stadionunda sloveniyalı baş hakim Slavko Vinçiçin idarə etdiyi matçın əvvəli bərabər mübarizədə keçsə də, artıq 6-cı dəqiqədə Xaris Seferoviç dəqiq zərbə ilə İsveçrəni hesabda irəli çıxardı. Cəmi 20 dəqiqədən sonra Şerdan Şakiri rəqibin üstünlüyünü iki qola çatdırdı. Bundan sonra oyun yenə bərabər xarakter aldı. 62-ci dəqiqədə İrfan Kəhvəçi fərdi ustalığı hüsabına qollardan birinin əvəzini çıxdı. Lakin yenidən irəli atılan isveçrəlilər 68-ci dəqiqədə daha bir qola sevindilər. Bu dəfə də Şakiri fərqləndi. Qalan dəqiqələrdə heç bir komanda fərqlənə bilmədi və oyun 3:1 hesabı ilə İsveçrə yığmasının xeyrinə nəticələndi.

Görüş başa çatdıqdan sonra Türkiyə millisinin baş məşqçisi Şenol Günəş jurnalistlərin suallarını cavablandırıb. Fiaskoya görə, məsuliyyətini etiraf edən çalışdırıcı bildirib: "Təbii ki, bu uğursuzluqların hesabatı veriləcək. Amma bu hesabat sizə deyil, rəhbərliyə və ictimaiyyətə olacaq. Komandanın uğuru və uğursuzluğuna cavabdehlik mənimdir. Uğursuzluğun qarşılığı istefadır, işi buraxıb qaçmaqdır, yoxsa çalışmaqdır? Bunu siz daha yaxşı bilərsiniz".

Baş məşqçidən fərqli olaraq Türkiyə millisinin aparıcı futbolçusu Burak Yılmaz Türkiyəni layiqincə təmsil etmədiklərinə görə üzr istəmişdir: "Belə olmamalı idi. Bu cür oynamamalı idik. Hamıdan üzr istəyirik. Ölkəmizi layiqincə təmsil etmədik. Çox kədərləndik".

Yığmanın digər "ulduzu" Hakan Çalhanoğlu da məyusluğunu gizlətməmişdir: "Bu turnir bizə məyusluq gətirdi. Ancaq səhvlərdən nəticə çıxarıb təslim olmuruq. Komandamız gəncdir. Biz mütləq irəliləyəcəyik".

Beləliklə, Türkiyə milli qrupda keçirdiyi hər üç görüşdə məğlub olaraq sonuncu yerdə qərarlaşmışdır.

A qrupunun qalibi isə 9 xalla 100 faizlik nəticə göstərən İtaliya millisi olmuşdur. Üçüncü turda Romadakı "Olimpiko" stadionunda Uels yığmasına qarşı keçirilən oyun da italyanların qələbəsi ilə yekunlaşmışdır - 1:0. Rumıniyalı referi Ovidiu Xatseqanın idarə etdiyi matçın 39-cu dəqiqəsində İtaliya yığmasının yarımmüdafiəçisi Matteo Pessinanın vurduğu qol yeganə olmuşdur. Oyunun 55-ci dəqiqəsində İtan Ampaduya qırmızı vərəqə göstərildikdən sonra Uels millisi azlıqda qalmışdır. Məğlubiyyətə baxmayaraq, uelslilər 4 xalla ikinci yeri tutmuş və pley-offa vəsiqə qazanmışlar. İsveçrə yığması da 4 xal qazanmış, lakin vurduğu və buraxdığı topların fərqinə görə qrupda üçüncü yeri tutmuşdur.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## "Avro-2020"nin təqvimi

22 iyun

**D qrupu**

**23:00. Çexiya - İngiltərə**
**23:00. Xorvatiya - Şotlandiya**

23 iyun

**E qrupu**

**20:00. İsveç - Polşa**
**20:00. Slovakiya - İspaniya**

**F qrupu**

**23:00. Almaniya - Macarıstan**
**23:00. Portuqaliya - Fransa**

**1/8 final**
26 iyun

**20:00. A qrupunun 2-cisi - B qrupunun 2-cisi**
**23:00. A qrupunun 1-cisi - C qrupunun 2-cisi**

27 iyun

**20:00. C qrupunun 1-cisi - D/E və ya F qrupunun 3-cüsü**
**23:00. B qrupunun 1-cisi - A/D/E və ya F qrupunun 3-cüsü**

28 iyun

**20:00. D qrupunun 2-cisi - E qrupunun 2-cisi**
**23:00. F qrupunun 1-cisi - A/B və ya C qrupunun 3-cüsü**

29 iyun

**20:00. D qrupunun 1-cisi - F qrupunun 2-cisi**
**23:00. E qrupunun 1-cisi - A/B/C və ya D qrupunun 3-cüsü**

**1/4 final**

2 iyul

**20:00. 1/8 finalın 6-cı cütünün qalibi - 1/8 finalın 5-ci cütünün qalibi**
**23.00. 1/8 finalın 4-cü cütünün qalibi - 1/8 finalın 2-ci cütünün qalibi**

3 iyul

**20:00. 1/8 finalın 3-cü cütünün qalibi - 1/8 finalın 1-ci cütünün qalibi (Bakı Olimpiya Stadionu)**
**23.00. 1/8 finalın 8-ci cütünün qalibi - 1/8 finalın 7-ci cütünün qalibi**

**1/2 final**

6 iyul

**23.00. 1/4 finalın 2-ci cütünün qalibi - 1/4 finalın 1-ci cütünün qalibi**

7 iyul

**23.00. 1/4 finalın 4-cü cütünün qalibi - 1/4 finalın 3-cü cütünün qalibi**

11 iyul

**Final**

## *Canni İNFANTİNO:*
## "AFFA hər zaman FIFA-nın dəstəyinə əmin ola bilər"




"Avro-2020"nin A qrupu çərçivəsində Bakı Olimpiya Stadionunda keçirilmiş İsveçrə-Türkiyə oyununu izləyən FIFA-nın prezidenti Canni İnfantino ölkəmizə növbəti səfəri ilə bağlı təəssüratlarını bölüşüb:

"Yenidən Bakıya gəldiyim və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasındakı dostlarımı gördüyüm üçün çox şadam. Uzun illərdir tanıdığım AFFA-nın prezidenti Rövnəq Abdullayevlə və onun rəhbərlik etdiyi komandanın üzvləri ilə ünsiyyətdə olmaqdan hər zaman məmnunluq hissi keçirirəm. Bir neçə maraqlı mövzu ətrafında səmərəli müzakirələrimiz oldu. AFFA hər zaman FIFA-nın dəstəyinə əmin ola bilər, FIFA isə AFFA-nın gələcəkdə də Azərbaycanda və regionda futbolun inkişafına böyük töhfələr verəcəyinə inanır. Ümid edirəm ki, Azərbaycana növbəti səfərim daha uzunmüddətli olacaq. Yaxın gələcəkdə Bakıya yenidən dönəcəyim günü səbirsizliklə gözləyəcəyəm".

**C qrupu**

**Ukrayna - Avstriya - 0:1**
Qol: Baumqartner, 21
Baş hakim: Cüneyt Çakır (Türkiyə)
**Buxarest. "Nasional" stadionu**

**Şimali Makedoniya - Niderland - 0:3**
Qollar: Memfis Depay, 24, Veynaldum, 51, 58
Baş hakim: İştvan Kovaç (Rumıniya)
**Amsterdam. "Yohan Kroyf Arena"**

## Fransa Osman Dembeleni itirdi

"Barselona" klubunun hücumçusu Osman Dembele Fransa yığmasının düşərgəsini tərk etmişdir. Bu barədə RMC radiosu xəbər verir.

Bildirilir ki, həkim müayinəsindən sonra futbolçunun dizindəki problemlərə görə azı üç həftə meydançadan kənarda qalacağı məlum olmuşdur.

Xatırladaq ki, başa çatmış mövsümdə İspaniya çempionatında keçirdiyi 30 görüşdə Dembele 6 qol vurmuş və 3 məhsuldar ötürmə vermişdir. "Avro-2020"də qrup mərhələsinin iki oyununda meydançaya çıxmış futbolçu fərqlənə bilməmişdir.





## Rekordlarla dolu gün

"Avro-2020"nin qrup mərhələsinin III turunun ilk günü bəzi statistik məqamlarla əlamətdar olub. Bunlar İtaliya-Uels (1:0) və İsveçrə-Türkiyə (3:1) qarşılaşmalarının nəticələri ilə bağlıdır. Bu barədə Apasport.az saytı xəbər verir.

Qardaş Türkiyə yığması Avropa çempionatları tarixinin antirekordunun bir addımlığında qalıb. Qrup mərhələsini 0 xal və -7 top fərqi (1-8) ilə başa vuran "ay-ulduzlular" yalnız 4 komandaya baxıb təsəlli tapa bilər.

1984-cü ildə Yuqoslaviya (2-10), 2000-ci ildə Danimarka (0-8), 2004-cü ildə Bolqarıstan (1-9), 2012-ci ildə İrlandiyanın (1-9) göstəriciləri daha pis olub.

Türkiyəyə 2 qol vuran Şerdan Şakiri İsveçrə millisinin dünya və Avropa çempionatlarının final mərhələlərində ən yaxşı bombardiri olub. Aktivində 7 top olan futbolçu Yozef Xyuqini (6) arxada qoyub.

İtaliya millisi ardıcıl "quru" oyunların sayını 11-ə çatdırıb. Bu, dünya rekordunun 1 matçlığındadır. 1972-1974-cü illərdə İtaliya millisi 12 oyunda qol buraxmayıb.

Dino Zoff həmin seriya zamanı 1143 dəqiqə qapısını toxunulmaz saxlayıb. Canluici Donnarummada bu rəqəm 874-ə bərabərdir. Rekorddan 269 dəqiqə geri qalan qolkiper "Avro-2020"nin sonunadək Zoffu arxada qoya bilər.

İtaliya millisi "Avro-2020"də fenomenal göstəriciyə malikdir. Seçmə və final mərhələlərindəki 13 oyunda 13 qələbə qeydə alınıb.

İtaliya millisi Avropa çempionatları tarixində ilkə imza atıb. Apenninlilər qrupda üç quru hesablı qələbə qazanan birinci komandadır.

Qeyd edək ki, İtaliya həm də məğlubiyyətsizlik seriyasını 30-a çatdırmaqla öz rekordunu təkrarlayıb. Bu, İspaniyanın müəllifi olduğu dünya rekordundan 5 oyun geridədir.

## Pandev Şimali Makedoniya millisində karyerasını bitirdi

**Şimali Makedoniya yığmasının 37 yaşlı kapitanı Qoran Pandev milli komandada karyerasının bitdiyini elan etmişdir. Bu barədə "Washington Post" qəzeti xəbər verir.**

Məlumata görə, tanınmış futbolçu bununla bağlı demişdir: "Bu, Şimali Makedoniya yığmasında mənim sonuncu oyunumdur. Fikrimcə, yığma ilə vidalaşmaq üçün yaxşı məqamdır. Belə möhtəşəm turnirdə millidən ayrılmağıma xoşbəxtəm. Təkcə mənim yox, həm də məşqçinin və millinin bütün oyunçularının arzusu real oldu - ölkəmizi, Makedoniyanı böyük turnirdə gördük".



## Şotlandiyalı Billi Gilmor koronavirusa yoluxub



"Avro-2020"də mübarizə aparan Şotlandiya yığmasının yarımmüdafiəçisi Billi Gilmor koronavirus infeksiyasına yoluxmuşdur.

Bu barədə Şotlandiya Futbol Assosiasiyasının rəsmi saytında bildirilir.

Məlumata görə, futbolçu 10 gün müddətinə təcrid olunacaq və Xorvatiya millisinə qarşı keçiriləcək görüşdə iştirak etməyəcək.

# “Şimal-1” Elektrik Stansiyası əsaslı təmir edilib

“Azərenerji” ASC-nin Mətbuat xidmətindən aldığımız məlumata görə, 20 il əvvəl istismara verilən Bakının Şüvəlan qəsəbəsində yerləşən 400 meqavatlıq “Şimal-1” Elektrik Stansiyasının qaz turbininin rotoru dəyişdirilməklə əsaslı təmir edilib.

100 ton çəkisi olan rotor dəyişdirildikdən sonra köhnə rotor modifikasiya üçün təmirə göndəriləcək. Bundan başqa, stansiyanın sahil nasosxanasındakı nasosların və fırlanan torların dəyişdirilməsi, qazanların daxili izolyasiya örtüyünün yenilənməsi və digər işlər həyata keçirilib.

Əsaslı təmir zamanı stansiyanın təsirlənmə sistemində ciddi yenilik edilib. 20 il idi ki, “Şimal-1” Elektrik Stansiyasında generatorun təsirlənmə sistemi bir kanallı idi və bu da stansiyanın etibarlığının aşağı olmasına səbəb olurdu. Əsaslı təmir zamanı sistemin stabilliyi funksiyalı yeni nəsil 2 kanallı təsirlənmə qurğusu ilə əvəzlənib. Bu isə sistemin stabilliyini qorumaqla yanaşı, dayanıqlığı da artırıb. Əgər bundan sonra bir kanal sıradan çıxarsa, avtomatik ikinci kanal işə düşəcək. Görülmüş işlər nəticəsində “Şimal-1” Elektrik Stansiyasında 20 meqavat “itirilmiş” güc bərpa edilib.

“Azərenerji” ASC “Şimal-1” Elektrik Stansiyasından sonra “Şimal-2” Elektrik Stansiyasının işləmə saatına uyğun olaraq yanma kameralarının da təftiş işi aparılıb. Beləliklə, ümumi qoyuluş gücü 800 meqavat olan “Şimal” Elektrik Stansiyası optimal vəziyyətə gətirilib.

***“Azərbaycan”***

# AZAL Təl-Əvivə xüsusi uçuşların icrasına başlayır

İyul ayının 11-dən “Azərbaycan Hava Yolları” aviaşirkəti Bakı - Təl-Əviv - Bakı marşrutu üzrə xüsusi uçuşlar həyata keçirməyə başlayacaq.

